"Bizim həyət" layihəsi çərçivəsində Səbail rayonunda daha bir həyət abadlaşdırılıb



Bax 3

MSK sədri namizədlərə növbəti dəfə xəbərdarlıq etdi



Bax 4

Azərbaycan gəncləri xalqına və dövlətinə bağlı gənclikdir



Bax 7



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 019 (5984) 1 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycandan dünyaya islahatlar nümunəsi

## *Bu, Prezident İlham Əliyev siyasətinin məntiqi realllığıdır*



Bax 2

Bax 4

### Anastasiya Lavrina: "Şəffaf mühitdə keçiriləcək seçkilər Azərbaycanın demokratik inkişafına əlavə təkan verəcək"



Siyasi icmalçı, Azərbaycandakı Rus icmasının sədr müavini Anastasiya Lavrina Secki-2020.az saytına müsahibəsində fevralın 9-da keçiriləcək...

### Azərbaycanda seçkiləri izləyəcək AŞPA müşahidə missiyasının rəhbəri açıqlandı



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) büro iclasında fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini izləmək üçün göndəriləcək müşahidə missiyasının rəhbəri...

Bax 7



### Diqqət: Bu gündən tələbələrin köçürülməsi prosesinə başlanılır

Bax

Fevralın 1-dən etibarən tələbələrin köçürülməsi prosesinə başlanılır. AZƏRTAC xəbər verir ki, elektron sənəd qəbulu fevralın 7-dək davam edəcək. Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi transfer.edu.az portalı vasitəsilə həyata keçirilir...

### "Yaxın vaxtda Avropa Məhkəməsinin Şahbaz Quliyev və Dilqəm Əsgərovla bağlı məsələyə baxması gözlənilir"



Ermənistan tərəfindən qeyri-qanuni olaraq girov götürülmüş Şahbaz Quliyev və Dilqəm Əsgərov ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən aparılan yazışma (kommunikasiya) yekunlaşmaq üzrədir. Yaxın vaxtda məsələyə...

Bax 5

### Amsterdamda növbəti erməni təxribatı ifşa edilib



Avropa Azərbaycanlıları Konqresi Niderlandın paytaxtı Amsterdam şəhərindəki "Mini Mix" supermarketində qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən "Artsax Frut" məhsullarının satışının həyata keçirildiyini aşkar edib...

Bax 4

Cenevrə görüşü Dağlıq Qarabağ münaqişəsinin həllinə nə vəd edir?



Bax 14

Bu il Azərbaycanın 58 şəhər və rayonunda 100 əmək yarmarkası keçiriləcək



Bax 2

Ronaldo yenə ən yaxşı seçildi



Bax 16

# Azərbaycandan dünyaya islahatlar nümunəsi

## *Bu, Prezident İlham Əliyev siyasətinin məntiqi realllığıdır*



***İldən-ilə daha geniş miqyas alan, milyonların rifahına xidmət edən sosial islahatların əsasında ölkənin iqtisadi qüdrəti və dinamik inkişafı dayanır. Bu işləri görmək üçün iqtisadi güc olmalıdır. Bu güc isə ölkə Prezidenti İlham Əliyevin son 16 ildə həyata keçirdiyi müdrik siyasətin nəticəsində əldə edilib və bu gün Azərbaycan dünyada söz və nüfuz sahibinə çevrilib. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu il yanvarın 21-də - bir gündə Prezident İlham Əliyevin Davosda aparıcı şirkətlərin və beynəlxalq maliyyə qurumlarının rəhbərləri, yüksək vəzifəli dövlət rəsmiləri ilə görüşləri və bu görüşlərdə aparılan danışıqlar, bir daha onu təsdiqləyir ki, Azərbaycanın uğurlu illəri hələ çox olacaq.***

Bu günlərdə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin danışıqlarının əhatə dairəsinin genişliyi, şübhəsiz ki, Prezident İlham Əliyevin məqsədyönlü, möhkəm iradəyə söykənən xarici siyasətinin nəticəsi və diplomatiyamızın uğurudur.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 16 il ərzində həmişə belə olub, verdiyi vədləri qətiyyətlə, istənilən şəraitdə yerinə yetirir. Tam əminliklə deyə bilərik ki, gələcəkdə də belə olacaq. Prezidentin verdiyi hər bir sözə görə yüksək məsuliyyətini, sonuncu prezident seçkilərindən sonra keçən bir il ərzində də aşkar görmək olar. Dövlət başçısı seçkilərdən dərhal sonra iqtisadi və sosial islahatlar sahəsində ciddi tədbirlər paketi qəbul edildiyini bildirdi və bu dəfə də öz vədini yerinə yetirdi.

### Yenilik reallığı - xalqımızı və dövlətimizi daha hansı uğurlar gözləyir

Azərbaycanda bütün islahatların və dəyişikliklərin əsas təşəbbüskarı Prezident İlham Əliyevin özüdür. Məhz Onun təşəbbüsü ilə məhkəmə-hüquq sistemində dərin islahatlar aparılıb. Prezidentin bu sahədə sonuncu Fərmanı - ədalət mühakiməsi sistemində islahatların yeni mərhələsinə start vermiş sənəd ekspertlər tərəfindən İnqilabi Fərman adlandırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" modeli bütün dünyanın diqqətini cəlb edib. Həmçinin, DOST, ABAD, Bir Pəncərə, İxraca Dəstək Mərkəzi, Şəbəkə və s. xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxındır. Ən əsası odur ki, islahatların sistemli, rəvan və hər hansı gərginlik olmadan aparılması islahatlara inamı artırır. Azərbaycan ictimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edir. Hazırda dünyada rəqabət idarəetmə sistemləri arasında gedir. Azərbaycan, məhz idarəetmənin səmərəliliyini artırmaqla qlobal səviyyədə rəqabətlilik potensialını gücləndirir.

Məhz Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində bu gün ölkəmiz hərtərəfli inkişafına nail olub və beynəlxalq reytinq təşkilatlarının Azərbaycanı yüksək səviyyələrdə sıralaması günün reallığıdır.

### Azərbaycan öz siyasətini reytinqlərə görə aparmır

"U.S.News" jurnalında dərc olunan reytinq siyahısında Azərbaycanın dünyanın 80 ən güclü ölkələri arasında 45-ci yerdə qərarlaşmasını, məhz ölkəmizdə dövlət başçısının rəhbərliyi altında aparılan uğurlu siyasətin göstəricisi kimi qeyd etmək olar. Bu da, real faktordur ki, Azərbaycan öz iqtisadiyyatını və öz siyasətini hər hansı bir reyintinqlərə görə aparmır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasətdə əsas məqsəd ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bu gün beynəlxalq reytinq təşkilatlarının Azərbaycanı yüksək səviyyələrdə sıralaması günün reallığıdır və xaricdən bizə baxılanda, görünən sevindirici nəticələrdir.

Hazırda Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim etməkdədir. Statistik göstəricilərə nəzər saldıqda və müqayisəli təhlillər apardıqda, aydın şəkildə görünür ki, beynəlxalq miqyasda Azərbaycan qədər dinamik iqtisadi inkişaf göstəriciləri olan ölkələrin sayı azdır. Azərbaycanın inkişafını beynəlxalq reytinq təşkilatları da təqdir edirlər. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycanın 10 ən islahatçı ölkə kimi tanınması və ölkəmizin 32 pillə irəliləyərək, hazırda 25-ci yerdə qərarlaşması dediklərimizin əyani sübutudur.

Bütün bunlar Azərbaycan Prezidentinin əhalinin rifahının yüksəlməsi məsələsini priotitet sahə kimi diqqətdə saxladığını, artıq bu istiqamət üzrə çox böyük işlər görüldüyünü və qarşıdan gələn illərdə də bu tendensiyanın qorunub-saxlanacağını bir daha təsdiq edir.

### "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Beləliklə, güclü iqtisadiyyatın məntiqi nəticəsi olaraq, Azərbaycanda mühüm sosial proqramlar da ildən-ilə genişlənir. İnsanlarımızın bütün kateqoriyaları həmin proqramlardan maksimum dərəcədə faydalanır və töhfələrini alır. Bütün qeyd edilənlər Prezident İlham Əliyevin sosial islahatlar proqramı nəticəsində Azərbaycanın sosial inkişafında davamlı irəliləyişlərlə xarakterizə olunan yeni keyfiyyət mərhələsinə keçildiyini göstərir və ölkəmizdə sosial firavanlığın təminatı istiqamətində mühüm addımların gələcəkdə də davam edəcəyinə kifayət qədər əminlik yaradır. Artıq bu realllıqlar kimsədə şübhə yaratmır ki, Azərbaycan dövləti və xalqını daha böyük, daha dinamik tərəqqi yolu gözələyir.

**RƏFİQƏ KAMALQIZI**

## Bilal Dündar: "Azərbaycanda maraqlı və rəqabətyönümlü seçki mühiti mövcuddur"



Azərbaycan demokratik inkişaf yolunda mühüm nailiyyətlər qazanıb. Hələ 1918-ci ildə Şərqdə ilk demokratik respublikanı məhz azərbaycanlılar qurublar. Bu baxımdan qardaş Azərbaycan xalqı demokratik dəyərləri həmişə yüksək qiymətləndirib. Qarşıdan gələn parlament seçkiləri də demokratik inkişaf yolunda mühüm addım olacaq. AZƏRTAC xəbər verir ki, bu fikirləri Secki-2020.az saytına açıqlamasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) sədri Bilal Dündar bildirib.

O qeyd edib ki, bu gün Azərbaycan inkişafının növbəti mərhələsinə qədəm qoyub, ölkədə ciddi islahatlar aparılır. Bilal Dündar qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan islahatlar insanların həyat səviyyəsinin yüksəldilməsinə, idarəetmədə şəffaflığın təmin olunmasına, ölkənin davamlı inkişafına xidmət edir. Bu, Azərbaycanın gələcəyi üçün olduqca zəruridir. Əminəm ki, formalaşacaq yeni parlamentdə təmsil olunan deputatlar da bu işə öz töhfələrini verəcəklər. Azərbaycanda seçki prosesini izlədiyini deyən TADF sədri ölkəmizdə maraqlı və rəqabətyönümlü seçki mühitinin mövcud olduğunu söyləyib. O, parlament seçkilərinin nəticələrinin Azərbaycan xalqının iradəsini ifadə edəcəyinə əminliyini vurğulayıb.

## Bu il Azərbaycanın 58 şəhər və rayonunda 100 əmək yarmarkası keçiriləcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 2020-ci il üzrə əmək yarmarkalarının keçirilməsinə başlanılıb. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu il üçün ilk əmək yarmarkaları Şabran və İsmayıllı rayonlarında təşkil olunub. Hər iki aktiv məşğulluq tədbirində işsiz və işaxtaran şəxslərə 62 müəssisədən 434 vakant iş yeri təqdim edilib. Bu il ərzində ölkəmizin 58 şəhər və rayonunda 100 əmək yarmarkasının keçirilməsi planlaşdırılır.

# "Bizim həyət" layihəsi çərçivəsində Səbail rayonunda daha bir həyət abadlaşdırılıb





*Yanvarın 31-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.*







Yenilənmiş həyət Səbail rayonu, Badamdar qəsəbəsi, Rafiq İsgəndərov küçəsi 4A və Əziz Nəzərov küçəsi 3, 3A, 5 və 9 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 160 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 130 ədəd ağac və müxtəlif növ gül kollar əkilib və 600 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# "Tullantıdan incəsənətə" müsabiqəsi çərçivəsində növbəti tədbir



Yanvarın 31-də Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və "Nargis" jurnalının birgə təşkilatçılığı ilə reallaşdırılan "Tullantıdan incəsənətə" müsabiqəsinin məktəbdaxili seçimi üzrə növbəti tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova, "Nargis" nəşriyyat evinin direktoru Aytən Hüseynova, Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov,





Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin əməkdaşları və təşkilatçı qurumların nümayəndələri iştirak ediblər.

Qonaqları salamlayan Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə tullantıların idarə edilməsi sahəsində maarifləndirmə işinin əhəmiyyətindən, onların ətraf mühitə və insan sağlamlığına vurduğu zərərdən danışaraq tullantıların idarə olunmasında məktəblilərin mühüm rol oynadığını bildirib.

Sonra çıxış edən "Nargis" nəşriyyat evinin direktoru Aytən Hüseynova layihənin vacibliyini vurğulayaraq bu kimi ekoloji və sosialyönümlü tədbirlərin vacib olduğunu vurğulayıb. Layihənin kuratoru Rəşad Ələkbərov "Qoy dünya yenidən gülsün" (Make the Earth smile again) mövzusunda təqdimatla çıxış edib.

Tədbirdə şagirdlər tərəfindən kağız, plastik kütlə, rezin məmulat və müxtəlif məişət tullantılarından istifadə etməklə hazırlanmış incəsənət nümunələrinə baxış keçirilib, mütəxəssislər tərəfindən respublika müsabiqəsinə göndəriləcək ən yaxşı işin seçimi edilib.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd ekoloji maarifləndirilmə sahəsində məktəblilərin bilik və bacarıqlarını artırmaq, yaradıcı qabiliyyətlərini üzə çıxarmaq, ətraf mühiti qorumaq və ekoloji problemlərin həlli yollarının araşdırılmasına kömək etməkdən ibarətdir.

2019-cu ilin noyabr ayından start verilən "Tullantılardan incəsənətə" müsabiqəsində Bakı şəhəri üzrə 14 ümumtəhsil məktəbi iştirak edir. Əsasnaməyə uyğun olaraq hər məktəb tədris ili boyunca tullantılardan müxtəlif incəsənət nümunələri hazırlayaraq ən yaxşı işi respublika mərhələsinə təqdim etməlidir. Yekunda müsabiqənin qalibləri təşkilatçılar tərəfindən mükafatlandırılacaq, qaliblər və layihə barədə ətraflı məlumat "Nargis" jurnalında işıqlandırılacaq.

# Anastasiya Lavrina: "Şəffaf mühitdə keçiriləcək seçkilər Azərbaycanın demokratik inkişafına əlavə təkan verəcək"



***Siyasi icmalçı, Azərbaycandakı Rus icmasının sədr müavini Anastasiya Lavrina Secki-2020.az saytına müsahibəsində fevralın 9-da keçiriləcək parlament seçkilərinə hazırlıq prosesini, seçki mühitini, ölkəmizin bu sahədəki təcrübəsini dəyərləndirib. AZƏRTAC müsahibəni təqdim edir.***

***- Fevralın 9-da Azərbaycanda növbəti parlament seçkiləri keçiriləcək. Siz seçkilərə hazırlıq prosesini, ölkəmizdəki seçki mühitini necə qiymətləndirirsiniz?***

- Azərbaycanda aparılan islahatlar, gənc, savadlı kadrların yüksək vəzifələrə təyin olunması, həmçinin parlamentin buraxılması gənclərin öz potensiallarını göstərə bilmələri üçün əlverişli imkan yaradır. Bu, mühüm amildir. Hazırda seçkilərə çoxlu sayda namizədin qatıldığını görürük. Təbliğat-təşviqat kampaniyası da səmərəli şəkildə aparılır. Seçicilər kimin nəyi, hansı yenilikləri, bölgələrin inkişafı üçün hansı ideyaları təklif etdiyini görməlidir. Əlbəttə ki, bu seçicinin öz namizədini seçməsi üçün vacibdir. Hesab edirəm ki, təbliğat-təşviqat kampaniyası dövründə canlı ünsiyyət zəruridir. Doğrudur, bəzi qeyri-fəal namizədlər də var. Onlar öz təbliğatlarını seçicilərlə canlı ünsiyyətdən daha çox internet üzərindən qurmağa üstünlük verirlər. Ümumilikdə isə maraqlı və sağlam rəqabət üzərində qurulan mübarizəni müşahidə edirik.

***- Necə düşünürsünüz, Azərbaycanın mövcud seçki qanunvericiliyi və ölkəmizin seçki təcrübəsi fevralın 9-da keçiriləcək seçkilərin demokratik və şəffaf şəkildə baş tutmasına zəmin yaradırmı?***

- İlk növbədə, qeyd etmək lazımdır ki, müstəqillik illərində keçirilən seçkilər Azərbaycana böyük təcrübə qazandırıb. Hər dəfə keçirilən seçkilər əvvəlkilərdən daha peşəkarlıqla keçirilir. Bunu seçkiləri izləyən beynəlxalq missiyalar da öz hesabatlarında bildirirlər. Hər seçkilərdə də Azərbaycana çoxlu sayda beynəlxalq müşahidəçi gələcək. Bu, əslində ölkədə demokratiyanın möhkəmlənməsi, eləcə də insan haqlarının qorunması istiqamətində əldə olunan nailiyyətləri təqdim etmək üçün çox yaxşı imkandır.

İnanıram ki, bu seçkilər də şəffaf və obyektiv keçiriləcək. Bununla yanaşı, mən əminəm ki, parlament seçkiləri Azərbaycanın beynəlxalq arenadakı mövqelərini daha da möhkəmləndirəcək. Son illər Azərbaycanın iştirakı və hətta bir sıra hallarda təşkilatçılığı ilə ciddi tədbirlər həyata keçirilir. Hazırda Azərbaycan dünya siyasəti üçün mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirə olunduğu platformaya çevrilib. Hesab edirəm ki, demokratik və şəffaf mühitdə keçiriləcək parlament seçkiləri Azərbaycanın demokratik inkişafına əlavə təkan verəcək.

2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərini Qaradağ rayonunda müşahidəçi qismində izləmək imkanım yaranmışdı. Biz bir neçə seçki dairəsində olduq, orda yaradılan şərait, seçkiyə hazırlıq prosesi çox yüksək səviyyədə idi. Bununla yanaşı, insanların da səsvermə zamanı fəallığı müşahidə olunurdu. İnsanlar ölkədə demokratik prinsiplərə riayət olunduğuna inandığı üçün könüllü şəkildə seçki məntəqələrinə gəlirdilər. Bu parlament seçkilərində də hər bir namizədə bərabər hüquq və imkanlar yaradılıb. İnanıram ki, bu seçkilər də öncəkilər kimi azad və ədalətli şəkildə keçiriləcək.

# Amsterdamda növbəti erməni təxribatı ifşa edilib



Avropa Azərbaycanlıları Konqresi Niderlandın paytaxtı Amsterdam şəhərindəki "Mini Mix" supermarketində qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən "Artsax Frut" məhsullarının satışının həyata keçirildiyini aşkar edib. AZƏRTAC xəbər verir ki, Konqres Niderlandın Xarici İşlər Nazirliyinə, həmçinin Vergilər və Gömrük Administrasiyasına bu məhsulların ölkədə qanunsuz satışının dayandırılması ilə bağlı müraciət ünvanlayıb.

Müraciətdə deyilir ki, qondarma "Artsax Respublikası" Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılıb və heç bir dövlət tərəfindən tanınmır. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. Qondarma respublikanın Niderlanda məhsul ixracı isə beynəlxalq hüquqa ziddir. Qeyd edək ki, Avropa Azərbaycanlıları Konqresi Azərbaycanın Haaqadakı səfirliyini məsələ ilə bağlı məlumatlandırıb. Səfirlik bu məsələni diqqətdə saxlayır və bununla bağlı tədbirlər planı həyata keçirir.

# MSK sədri namizədlərə növbəti dəfə xəbərdarlıq etdi



***"Deputatlığa namizədliyi qeydə alınmış şəxslərin hər biri seçkiqabağı təşviqat kampaniyası zamanı özünün görəcəyi işlər barədə məlumat verməlidir". SİA-nın məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın dünən keçirilən iclasında bildirib. MSK sədri deyib ki, namizədlərin bir-birinin heysiyyatına toxunan addımları qəbuledilməzdir: "Seçkiqabağı təşviqat kampaniyası zamanı deputatlığa namizədlər öz qələbəsini başqasının məğlubiyyəti üzərində qurmamalıdır".***

M. Pənahov namizədləri ədalətli olmağa çağırıb: "Bir namizədin hansısa formada digər namizədə qarşı kampaniya aparması yolverilməz haldır. Bu qanuna ziddir. Bu cür namizədlərə xəbərdarlıq edilməlidir".

# “Hamılıqla Siyavuş Novruzova səs verək!”

## YAP-ın namizədinə möhtəşəm dəstək müraciəti





***Bir qrup veteran təşkilatı və ictimai birliklər YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Dünyamalı oğlu Novruzova dəstək çağırışı ilə 5 saylı Şahbuz - Babək Seçki Dairəsi üzrə seçicilərə müraciət ünvanlayıblar. Əldə etdiyimiz məlumata görə, həmin müraciətdə deyilir:***



“Hörmətli həmvətənlərimiz!

Bildiyiniz kimi, 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkilərində 5 saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş, Əfqanıstan, Sədərək, eləcə də, Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, müharibə veteranı Siyavuş Novruzov Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir.

Siyavuş Novruzov Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri olaraq, hər zaman sözügedən qurumların fəaliyyətinə dəstək verib, günün reallıqları ilə səsləşən yeni qanunların hazırlanması və qəbulu təşəbbüsü ilə çıxış edib.

O, hər zaman müharibə və əmək veteranlarına, hərbi qulluqçulara, əlillərə, şəhid ailələrinə diqqət və qayğı göstərmiş, onların həyat və məişət şəraitinin daha da yaxşılaşdırılması üçün əlindən gələni əsirgəməmişdir. Əminik ki, Siyavuş Novruzov yenidən Milli Məclisdə təmsil olunacağı halda, xalqımızın layiqli nümayəndəsi kimi ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların həyata keçirilməsində, əhalinin rifahının daha da yaxşılaşmasında, sosialyönümlü qanunların qəbul olunmasında bundan sonra da fəal iştirak edəcək.

Hörmətli seçicilər, hamılıqla Siyavuş Novruzova səs verək!”

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı,

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi,

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi,

“Azərbaycan Əfqanıstan Veteranları” İctimai Birliyi,

“Ehtiyyatda Olan Zabitlərin Konfederasiyasi” İctimai Birliyi,

“Tərxiz Olunmuş Hərbiçi Gənclərin Maarifləndirilməsi” İctimai Birliyi,

“20 Yanvar Cəmiyyəti” İctimai Birliyi,

“Çernobı Əlilləri” İttifaqı İctimai Birliyi,

Azərbaycan Gözdən Əlillər Cəmiyyəti,

Azərbaycan Respublikası “Beynəlmiləlçi Əlil Döyüşçülər” İctimai Birliyi,

Azərbaycan Respublikası “Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondu.

Qeyd edək ki, müraciət əsnasında Siyavuş Novruzovun hərbi xidməti zamanı çəkilmiş fotoları da təqdim edilib.

***Rövşən Rəsulov***

## Xələf Xələfov Ukrayna Prezidenti Administrasiyası rəhbərinin müavini ilə görüşüb

Ukrayna Prezidenti Administrasiyası rəhbərinin müavini İqor Jovkva Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfovla görüşüb. AZƏRTAC xəbər verir ki, tərəflər Ukrayna Prezidenti Vladimir Zelenskinin ötən ilin dekabrında Azərbaycana rəsmi səfərinin yekunlarını yüksək qiymətləndiriblər. Görüşdə yaxın gələcəkdə ikitərəfli dialoqun prioritet istiqamətləri müzakirə edilib. İqor Jovkva Ukrayna və Azərbaycanın birgə layihələr həyata keçirməsinin əhəmiyyətini qeyd edib. Əlavə edib ki, infrastruktur və energetika sahələrində həyata keçirilən layihələr daha mühümdür. Xələf Xələfov Azərbaycanın qarşılıqlı maraq kəsb edən bütün sahələrdə Ukrayna ilə əməkdaşlığın dərinləşdirilməsi niyyətini təsdiq edib. O, həmçinin iki dövlətin beynəlxalq platformada fəal əməkdaşlığını yüksək qiymətləndirib. Görüşdə 2020-ci il yanvarın 30-31-də Kiyevdə keçirilən Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq Məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclasının gələcək nəticələrinə xüsusi diqqət yetirilib.



## “Milli Məclisə keçirilən seçkilər qardaş ölkəmizin inkişafına təsir göstərən ən mühüm amildir”

Azərbaycanda aparılan islahatlar çərçivəsində fevralın 9-da Milli Məclisə keçirilən seçkilər qardaş ölkəmizin inkişafına təsir göstərən ən mühüm amildir. Bu fikirləri AZƏRTAC-açıqlamasında İzmir Azərbaycan Mədəniyyəti və Həmrəyliyi Dərnəyinin sədri Mülazim Pahsa bildirib. “Azərbaycandakı seçki prosesini yaxından izləyən bir şəxs kimi deyə bilərəm ki, yeni çağırış parlament Azərbaycan dövlətçiliyinin inkişafına mühüm töhfələr verəcək. Yeni parlament öz fəaliyyəti ilə ölkədə aparılan islahatlara, Azərbaycanın daha da inkişafına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşması istiqamətində görülən işlərə töhfə verəcək”, - deyən dərnək sədri əlavə edib ki, parlament seçkilərində çoxsaylı namizədin, o cümlədən gənclərin iştirakı demokratik seçki mühitinin göstəricisidir. Onun sözlərinə görə, Azərbaycan xalqı seçkilərdə fəal şəkildə iştirak edərək, öz iradəsini ortaya qoyacaq. Mülazim Pahsa qeyd edib ki, kənardan aparılan müşahidələr bu gün Azərbaycanda azad, ədalətli seçkilərin keçirilməsi üçün imkanların yaradıldığını göstərir.

## Qazaxıstan Azərbaycanda 3 ticarət evi açacaq

Qazaxıstan Azərbaycanda 3 ticarət evi açmağı planlaşdırır. AZƏRTAC xəbər verir ki, bu sözləri Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdukərimov deyib. O bildirib ki, ötən il Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsi 229 milyon dollar olub. “Azərbaycanda 3 ticarət evi açmağı planlaşdırırıq. Səfirliyin binasının birinci mərtəbəsində Qazaxıstan məhsullarının sərgisini təşkil edəcəyik, eyni zamanda, Qazaxıstanla Azərbaycan arasında İşgüzar Şura yaratmaq üçün rəsmiləşdirmə işlərinə başlamışıq”, - deyə səfir qeyd edib.

## Diqqət: Bu gündən tələbələrin köçürülməsi prosesinə başlanılır



Fevralın 1-dən etibarən tələbələrin köçürülməsi prosesinə başlanılır. AZƏRTAC xəbər verir ki, elektron sənəd qəbulu fevralın 7-dək davam edəcək. Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi transfer.edu.az portalı vasitəsilə həyata keçirilir. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

***Yanvarın 31-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda mərkəzi aparatın işçilərinin və ərazi hərbi prokurorlarının iştirakı ilə 2019-cu ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyəti, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun struktur qurumlarında və ərazi hərbi prokurorluqlarındakı əməliyyat müşavirələrinin nəticələri və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.***

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib



Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev müasir müstəqil Azərbaycanın xilaskarı, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini, Azərbaycanın sürətli inkişaf strategiyasını dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin möhkəm siyasi iradəsinin, sarsılmaz qətiyyətinin və çoxşaxəli fəaliyyətinin xalqın əzmkarlığı ilə sıx vəhdəti nəticəsində ötən il ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində mühüm uğurların əldə olunduğu, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə son illər ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan bəhs edən Xanlar Vəliyev, millətinə xidməti həyat amalına çevirmiş dövlətimizin başçısı İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirdiyini xüsusi vurğulayıb. Bildirib ki, tarixə islahatlar ili kimi düşən ötən ildə aparılan çoxşaxəli islahatlar və görülmüş böyük işlər nəticəsində dövlətimiz daha da qüdrətlənib, xalqımızın rifah halı hərtərəfli yaxşılaşdırılıb və əhalinin sayı artaraq on milyonu keçib. Təsadüfi deyil ki, Azərbaycan Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, islahatlara meyillilik və rəhbərliyə olan inamın əmsalına görə dünyada ilk onluqda qərarlaşıb. Dünya Bankının "Doing Business 2020" hesabatında isə 20 ən islahatçı dövlət siyahısına daxil edilməklə, bir çox ölkələri geridə qoyub. Bütün bunlar əminliklə onu deməyə əsas verir ki, Azərbaycan intibah dövrünü yaşayır.

Ölkəmizin hərtərəfli inkişafında və qazanılan ardıcıl uğurlarda, eləcə də Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsində yüksək erudisiyası, dərin düşüncəsi, mükəmməl idarəçilik qabiliyyəti, millətinə və dövlətinə sədaqəti, milli-mənəvi dəyərlərə sadiqliyi, saysız-hesabsız xeyirxah əməlləri və digər məziyyətləri ilə bütün dünya qadınlarına örnək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev bu nəcib insanın UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi Azərbaycanla adları çəkilən beynəlxalq təşkilatlar arasında qarşılıqlı faydalı əlaqələrin yaranmasındakı, xalqımızın, milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin, o cümlədən xalçaçılıq, muğam, aşıq sənətinin, milli musiqi alətlərimizin və sair dəyərlərimizin bütün dünyaya tanıdılmasındakı misilsiz xidmətlərindən bəhs etməklə, ötən il "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olunmasını xüsusi qeyd edib. Bildirilib ki, Mehriban xanımın bəşər mədəniyyətinin inkişafı istiqamətində gördüyü böyük işlər və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər, ona Azərbaycan xalqının sonsuz sevgisi ilə bərabər, bir sıra ölkələrin vətəndaşlarının da rəğbətini qazandırıb. Dünya dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə qarşılıqlı etimada əsaslanan münasibətlərin daha da möhkəmləndirilməsinin, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətin prioritet istiqamətlərindən olduğunu qeyd edən Hərbi Prokuror Xanlar Vəliyev Mehriban xanım Əliyevanın Azərbaycan ilə Rusiya arasındakı sıx əlaqələrin daha da inkişafına və şaxələndirilməsinə xidmət edən rəsmi səfərinin əhəmiyyətini xüsusi qeyd edib.

Hər iki dövlətin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasındakı əməkdaşlığın da yüksək səviyyədə olduğunu bildirən ədliyyə general-leytenantı Xanlar Vəliyev 2018-ci ildə rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiyaya, ötən il isə Rusiya Federasiyasının Baş Hərbi prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Valeri Georgiyeviç Petrovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi səfərlərinin əhəmiyyətindən danışıb.

Azərbaycan Respublikasında insanların rifahının mütəmadi olaraq yüksəldilməsinin, sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindən olduğunu vurğulayan Hərbi prokuror "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" dövlətimizin başçısının 2019-cu il 28 fevral tarixli Fərmanının müstəsna əhəmiyyətindən, onun əsasında yüz minlərlə insanın kredit problemlərinin həll olunmasından və nəticədə həmin insanların maddi vəziyyətlərinin əhəmiyyətli dərəcədə yaxşılaşmasından bəhs edib.

Əldə olunan nailiyyətlər və qazanılan uğurlar fonunda ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatların məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasına və bu sahədə də islahatların dərinləşdirilməsinə rəvac verdiyini bildirən Xanlar Vəliyev bununla əlaqədar dövlətimizin başçısının imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının mütərəqqi müddəalarından söz açıb.

Dövlətimizin hərtərəfli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də müsbət təsir etdiyini vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilib, hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir və işğal altındakı torpaqlarımızı azad etməyə hazır olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Bunun nəticəsidir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı 2019-cu il üçün olan hesabatında Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuz 52-ci yeri tutub.

Hərbi prokuror bildirib ki, ötən illərdə olduğu kimi, 2019-cu ildə də Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin 99,5 faizi açılıb.

Eyni zamanda, milli və rəsmi dövlət bayramlarında, digər əlamətdar günlərdə hərbi qurumların, qeyri-hökumət təşkilatlarının və müvafiq rayonların icra hakimiyyəti orqanlarının nümayəndələri ilə birgə vətənimizin müxtəlif bölgələrində, xüsusən də cəbhəyanı zonada yerləşən hərbi hissələrdə hərbi qulluqçular və valideynlərinin iştirakı ilə bayram mərasimləri, o cümlədən konsertlər təşkil edilib, həmin tədbirlərdə hərbi qulluqçuların qayğı və problemləri dinlənilib və xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunub. Bundan başqa, Silahlı Qüvvələrdə ayrı-ayrı cinayətlərin qarşısının alınması məqsədilə hər il olduğu kimi, ötən il də məhkəmə və istintaq təcrübəsi hər altı ayda bir dəfə ümumiləşdirilərək müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilib. Kollegiya iclaslarının qərarlarına əsasən, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və başqa struktur qurumların rəhbərlərinə cinayətin törədilməsinə imkan yaradan halların aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair məlumat məktubları, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilib. Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən illə müqayisədə ümumilikdə 2 faiz, o cümlədən az ağır cinayətlər 10,9 faiz, xüsusilə ağır cinayətlər 44,4 faiz azalıb.

Xüsusi vurğulanıb ki, hərbi hissəni və ya xidmət yerini döyüş şəraitində özbaşına tərk etmə cinayəti isə ümumiyyətlə qeydə alınmayıb.

Kollegiya iclasında, görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunub. İbtidai araşdırmanın aparılması, baş vermiş cinayət hadisələri nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş maddi ziyanın ödənilməsi, dövlət ittihamının müdafiəsi ilə əlaqədar işin təşkilində yol verilmiş nöqsanlar və çatışmazlıqlar ciddi tənqid edilib, onların aradan qaldırılması üçün konkret göstərişlər verilib. Qeyd olunub ki, 2019-cu ildə xidməti fəaliyyətində yol verdiyi nöqsanlara görə 14 nəfər prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib.

Sonra məruzə ətrafında çıxışlar olub. Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru, ədliyyə general-mayoru Yaşar Həsənov, Hərbi Prokurorluğun Müraciətlərə baxılması şöbəsinin rəisi, ədliyyə polkovniki Səfər Əhmədov, Gəncə hərbi prokuroru, ədliyyə polkovniki Əmrah Mehtiyev, Qarabağ hərbi prokuroru, ədliyyə polkovniki Fərid Şükürov və Tərtər hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Hümmət Məmmədov hesabat dövründə görülmüş işlərdən danışıb, nöqsanların və çatışmazlıqların aradan qaldırılması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı səmərəli mübarizənin təmin olunması ilə əlaqədar hərbi prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görüləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasına yekun vuran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi ulu öndər Heydər Əliyevin millətimizin və dövlətimizin maraqlarına xidmət edən müdrik siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, cinayətkarlığa və digər qanun pozuntularına, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək hallara qarşı mübarizədə barışmaz mövqe tutaraq üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

# Azərbaycan gəncləri xalqına və dövlətinə bağlı gənclikdir

## Sabah 2 Fevral Azərbaycan Gəncləri Günüdür



***Bu gün Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də gənclər siyasətidir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəslənilir və ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramları qəbul edilir.***

Azərbaycan bütün gücü ilə inkişaf edən ölkədir. Onun xarici görkəmini dəyişən tikintilər, günü-gündən güclənən milli ordu, möhkəm və etibarlı siyasət dövlətin gələcəyinə uğurla və inamla addım atmağa şərait yaradır. Son 16 ildə görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə bütün dünyada, həm də informasiya müharibəsinin getdiyini nəzərə alsaq, vətəndaşlarımız, xüsusilə, gənclərimiz daha çox maarifləndirilir, onlara daim ayıq-sayıq olmaları, elmli, savadlı gənclik olaraq yetişmələri aşılanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti, sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirib. Bu siyasətin davamı olaraq, Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırır. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da, olduqca əhəmiyyətli idi.

Ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir.

Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinin savadına, bacarığına və gələcəyinə böyük inam bəsləyir: "... Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər İli" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət Proqramının səmərəli həyata keçirilməsi istiqamətində əhəmiyyətli oldu. Həyata keçirilən tədbirlər, islahatlar, dövlət proqramları əsasında, deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açıb. Cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradılıb, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artıb.

Bütün bunlarla yanaşı, ölkəmizdə könüllülük hərəkatı inkişaf edib. Son illər ölkəmizdə həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən, idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək və həmrəylik kimi dəyərlər aşılamış olur. Bildiyimiz kimi, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər İli" elan edildi. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Sərəncamda qeyd olunduğu kimi, Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Öz iradəsi və sərbəst seçimi əsasında, əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük fəaliyyətinin əsasında, cəmiyyət naminə təmənnasız işlərin görülməsi dayanır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ-hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. İndiyədək 30 minə yaxın könüllü müxtəlif dövlət qurumlarında könüllülük fəaliyyətinə cəlb edilib. Keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması və cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***



## *"Yaxın vaxtda Avropa Məhkəməsinin Şahbaz Quliyev və Dilqəm Əsgərovla bağlı məsələyə baxması gözlənilir"*

Ermənistan tərəfindən qeyri-qanuni olaraq girov götürülmüş Şahbaz Quliyev və Dilqəm Əsgərov ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən aparılan yazışma (kommunikasiya) yekunlaşmaq üzrədir. Yaxın vaxtda məsələyə baxılması gözlənilir. Bunu Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov AZƏRTAC-a açıqlamasında deyib.

A.Bağırov bildirib ki, bütün tərəflər - həm Azərbaycan hökuməti, həm də girovları qanunsuz saxlayan Ermənistan hökuməti müvafiq rəyləri məhkəməyə təqdim etmək üzrədirlər. Beləliklə, bu məsələnin baxılıb həll olunması üçün hər hansı əngəl qalmayıb. Ermənistan tərəfindən qeyri-qanuni olaraq girov götürülmüş Şahbaz Quliyev və Dilqəm Əsgərov ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə göndərilən müraciətlə bağlı lazımi prosedurlar mütəmadi qaydada davam etdirilir. Hesab edirik ki, qısa zamanda bu məsələyə baxılacaq və bu ədalətsizliyə, qanunsuzluğa, qeyri-insani rəftara, işgəncələrə, qanun və beynəlxalq hüquq normalarının pozuntusuna son qoyulacaq.

## Azərbaycanda seçkiləri izləyəcək AŞPA müşahidə missiyasının rəhbəri açıqlandı



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) büro iclasında fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini izləmək üçün göndəriləcək müşahidə missiyasının rəhbəri təsdiqlənib. Secki-2020.az saytında yer alan məlumatda deyilir ki, Frank Şvabe müşahidə missiyasının rəhbəri təyin olunub. AŞPA-dakı beş siyasi qrupun hər birini təmsil edən müşahidə heyəti fevralın 6-dan 10-dək parlament seçkilərini izləmək üçün Azərbaycana gələcək.

# YAP-ın namizədlərinə verilən səslər Azərbaycanın qüdrətinin və əhalinin rifahının daha da artmasına xidmət edəcək



*45 saylı Abşeron seçki dairəsindən Milli Məclis üzvlüyünə namizəd Oqtay Əsədovun yap.org.az-a müsahibəsi*

Hörmətli Oqtay müəllim, bu gün müstəqil Azərbaycan ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayacaq mühüm bir siyasi hadisə ərəfəsindədir. Qarşıdan növbədənkənar parlament seçkiləri gəlir. Bu məsələ ilə əlaqədar fikirlərinizi öyrənmək istərdik.

**- Ölkənin Əsas sənədi - Konstitusiyasına əsasən Azərbaycan parlamenti hakimiyyətin mühüm qollarından biridir. Bu baxımdan ölkə parlamentinə seçkilər həmişə ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Prosesin özü haqlı olaraq cəmiyyətin hər bir üzvünü düşündürən siyasi bir aksiya kimi səciyyələndirilir. Dünyanın müasir dövlətlərində bu tipli kampaniyalar ərəfəsində cəmiyyətdə böyük bir aktivlik müşahidə olunur. Bu da təbiidir. Çünki xalq onun mənafeyini, fikirlərini müdafiə və ifadə edəcək öz millət vəkilini seçir.**

Çağdaş müstəqillik tariximizdə milli qanunvericiliyin inkişaf prosesinə nəzər saldıqda görürük ki, 1995-ci ilədək Azərbaycan Sovet dövründən qalmış Konstitusiya və qanunlarla idarə olunurdu. Bu sənədlərə həyatın müxtəlif dönəmlərində dəyişikliklər edilsə də, onlar ictimai-siyasi həyatdakı mövcud reallıqları əks etdirmirdi. Məhz bunları nəzərə alaraq, müstəqilliyimizin memarı ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yeni Konstitusiya layihəsi hazırlandı.

1995-ci il noyabrın 12-də Azərbaycanın yeni Konstitusiyası referendum yolu ilə qəbul olundu və həmin gün yeni hazırlanmış seçki qanunvericiliyi əsasında müstəqil Azərbaycanın ilk parlamentinə - I çağırış Milli Məclisə seçkilər keçirildi. Yeni Konstitusiya və yeni parlament müstəqil Azərbaycanımızın yeni qanunvericilik sisteminin yaradılması üçün əsaslı zəmin yaratdı. Məhz bu addımlar nəticəsində həyatın bütün sahələrini əhatə edən yeni qanunvericilik aktları qəbul olundu. Ölkənin Əsas sənədində təsbit olunduğu kimi hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu istiqamətində məqsədyönlü əməli addımlar atıldı. Bu, əslində, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün yaxşı imkanlar demək idi. Tezliklə ölkənin iqtisadi qanunvericilik bazası möhkəmləndi, islahatların aparılması üçün lazımi hüquqi baza yaradıldı. Azərbaycan Avropa məkanına daha da yaxınlaşdı. Avropa parlamentarizminin ən yaxşı cəhətlərindən istifadə edərək parlamentarizm ənənələrini daha da inkişaf etdirdi.

Təbii ki, vaxt, zaman ötdükcə, dünya miqyasında baş verən proseslər, meydana çıxan yeni çağırışlar yeni yanaşmalar tələb edir. Bu gün ölkəmizin dünya miqyasındakı mövqelərini qoruyub saxlamaq, onun inkişaf tempini daha da sürətləndirmək naminə zəruri addımların atılması həyatın tələbidir.

Qloballaşan dünyamızda baş verən hadisələr elə sürətlə cərəyan edir ki, yeni dövrün tələblərinə cavab vermək məqsədi ilə ölkənin hakim aparıcı partiyası olan Yeni Azərbaycan Partiyası müasir çağırışlara uyğun olaraq yeni hədəflərə çatmaq üçün müəyyən addımların atılmasını zəruri hesab etmişdir. Ümumilikdə, yaşadığımız yeni dövr yeni baxış, yeni təfəkkür tərzi, kreativ düşüncə, praqmatik baxış kimi keyfiyyətləri zəruri edir. Partiyamız məhz bu mövqedən çıxış edərək, növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri hesab etmişdir. Bu addım daha güclü Azərbaycan naminə atılmış düşünülmüş bir addım idi.

Bu fikrin daha geniş izharı üçün ölkəmizdə 2019-cu ildə reallaşdırılan siyasi məzmunlu islahatların önəmini xüsusi qeyd etmək lazımdır. Dünya təcrübəsi də göstərir ki, siyasi sistemi təkmilləşdirmədən digər istiqamətlərdə mütərəqqi dəyişiklikləri reallaşdırmaq mümkün deyil. Siyasi sistem dəyişən çağırışlarla daim ayaqlaşmalıdır, əks halda o, digər sahələrdə inkişafı əngəlləyə bilər. Bu baxımdan ötən il Azərbaycanın Milli Məclisinə seçkilərin keçirilməsinə dair qəbul edilən qərar vaxtında verilmiş bir qərardır.

Məlum olduğu kimi, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının (YAP) üzvləri Milli Məclisin Sədrinə müraciət edərək yaranmış vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildiriblər. Parlamentin plenar iclaslarında digər partiyaları təmsil edən deputatlar da hakim partiyadan olan həmkarlarının mövqeyini dəstəkləyiblər. Bundan sonra Milli Məclis 2 dekabr 2019-cu il tarixində müvafiq qərar qəbul edib. Qərarda vurğulanır ki, ölkədə həyata keçirilən köklü islahatlar son dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

Qeyd edək ki, Milli Məclisə seçkilər təyin olunarkən qanunvericiliyin bütün tələbləri gözlənilib. Belə ki, dekabrın 4-də Konstitusiya Məhkəməsinin iclasında Azərbaycan Prezidentinin Milli Məclisin yuxarıda bəhs olunan Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair sorğusuna baxılıb. Konstitusiya Məhkəməsi qəbul etdiyi Qərarda Milli Məclisin Azərbaycan Prezidenti tərəfindən buraxılmasını Konstitusiyaya uyğun hesab edib. Bundan sonra Prezident İlham Əliyev 5 dekabr 2019-cu il tarixində "Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Sərəncam imzalayıb.

Şübhə yoxdur ki, fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilər ölkəmizdə demokratiyanın dərinləşməsi yolunda növbəti uğurlu addım olacaq və formalaşacaq yeni parlament Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlara daha geniş miqyasda öz dəstəyini göstərəcək.

**- Siz ölkənin üç çağırış Milli Məclisinə rəhbərlik etmisiniz. Sədrliyiniz dövründə ölkənin ictimai-siyasi həyatında parlamentin oynadığı rol barədə nə deyə bilərsiniz?**

- Məlum olduğu kimi, parlamentdə qəbul olunan qanun və qərarlar ölkənin ictimai-siyasi həyatına birbaşa təsir göstərir. Milli Məclis öz səlahiyyətləri çərçivəsində beynəlxalq arenada baş verən proseslərə də lazım gəldikdə münasibət bildirir. Ölkənin beynəlxalq əlaqələrinin inkişafına parlament diplomatiyası vasitəsilə töhfələr verir.

Heç şübhəsiz ki, ölkəmizdə müasir cəmiyyətin formalaşması, siyasi sistemin dünya standartları səviyyəsinə yüksəlməsi, demokratik proseslərin dərinləşməsi, ölkə həyatının bütün sahələrini bürümüş islahatların hüquqi bazasının yaradılması və təkmilləşdirilməsi parlamentin diqqət mərkəzində saxladığı ən ümdə məsələlərdən olub. Əsası ulu öndər tərəfindən qoyulmuş Azərbaycanın milli inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun uğurla davam etdirilir. Azərbaycanı nümunəvi dövlət kimi fərqləndirən mühüm amillərdən biri ondan ibarətdir ki, ölkəmiz özünün praqmatik siyasətini, bir qayda olaraq, zamanın dəyişən tələblərinə, yeni trendlərə uyğun qurur. Bu baxımdan Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi ilə reallaşdırılan islahatlar mühüm əhəmiyyət kəsb edir.

Dərin konseptual əsaslarla hazırlanan islahatlar kompleks səciyyə daşıyır və konkret hədəflərə hesablanır. Genişmiqyaslı islahatların aparılması baxımından artıq tarixə dönən 2019-cu il də istisna təşkil etməyib. Ölkə başçısının təbirincə desək: "Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdir-lə qəbul edilir".

İctimai və dövlət nəzarətinin gücləndirilməsi, iqtisadi fəallığın yüksəldilməsi ölkə başçısı tərəfindən Azərbaycanın hərtərəfli tərəqqisi üçün başlıca şərt kimi qarşıya qoyulmuşdur. Həyata keçirilən islahatlar daha çox sosial sahəni əhatə edir. Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi "Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır" bəyanatı keçən il də öz təsdiqini tapmışdır.

Ölkəmizin imza atdığı, fəal iştirakçısı və təşəbbüskarı olduğu neft və qaz layihələri təkcə bölgənin deyil, həm də Avropanın enerji təhlükəsizliyinə də mühüm töhfə verir. Yeni kommunikasiya qovşaqlarının yaranması ölkəmizi regionun mühüm nəqliyyat mərkəzinə çevirəcəkdir. Məhz aparılan məqsədyönlü siyasətin nəticəsində Bakı bu gün mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu bir məkana çevrilmişdir. Mötəbər beynəlxalq tədbirlərin Bakıda keçirilməsi dünya ictimaiyyəti tərəfindən artıq adi hal kimi qarşılanır. Nüfuzlu beynəlxalq idman yarışlarına paytaxtımızın ev sahibliyi etməsi Azərbaycanımızın iqtisadi qüdrətinin və onun inkişafının nəticəsidir.

Bu uğurların əldə edilməsində şübhəsiz ki, Azərbaycan parlamenti də öz töhfəsini vermişdir. Ötən illərdə Milli Məclis qanunvericilik sisteminin daha da təkmilləşdirilməsi istiqamətində əməli addımlar atmışdır. 2005-2015-ci illər ərzində parlamentin 266 iclası keçirilmiş, 2516 qanun və qərar qəbul olunmuşdur. Onlardan 6-sı Konstitusiya qanunu, 23-ü Konstitusiya qanununa dəyişikliklər, 263-ü qanun, 1363-ü qanuna dəyişikliklər və əlavələr, 301-i isə qərardır. Bu dövrdə 560 beynəlxalq müqavilə və konvensiyanı qanunla təsdiq etmişdir. Ötən V çağırış dövründə Milli Məclisin 115 iclası keçirilmiş, 1732 qanun və qərar qəbul olunmuşdur. Onlardan 245-i qanun, 1350-si qanunlara dəyişikliklər, 137-si qərarlardır. Qəbul olunmuş Konstitusiya qanunları, məcəllələr, qanunlar, təsdiq edilmiş konvensiyalar, sazişlər cəmiyyət və dövlət həyatında yaranan münasibətləri tənzimləməyə xidmət edir.

Parlamentdə qəbul olunmuş sənədlərin mühüm bir hissəsi ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. İlham Əliyev hələ 1995-2003-cü illərdə Azərbaycan parlamentinin deputatı olduğu dövrdə Milli Məclisin qanunyaratma fəaliyyətində iştirak etmiş, qanunvericiliyimizin müasir standartlar səviyyəsinə yüksəlməsinə, parlamentin beynəlxalq əlaqələrinin genişlənməsinə dəyərli töhfələr vermişdir.

Azərbaycan Prezidenti Milli Məclisdə deputat köməkçisi institutunun təsis edilməsinə böyük dəstək vermişdir. Dövlət başçısının təşəbbüsü və qayğısı ilə Milli Məclisin siması tamamilə yenilənmişdir. Parlamentin yeni korpusu tikilib istifadəyə verilmiş, maddi-texniki bazası yenidən qurulmuşdur. Burada müasir iclas salonları, ümummilli lider Heydər Əliyevə həsr olunmuş Xatirə zalı, zəngin kitabxana yaradılmışdır.

Milli Məclisin beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. İndiyədək xarici ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında çoxsaylı sazişlər bağlanmışdır. Milli Məclisdə 82 ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır.

Milli Məclis ölkəmizin üzv olduğu beynəlxalq təşkilatların parlament məclislərinin, o cümlədən ATƏT-in Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, MDB Parlamentlərarası Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Türkdilli Ölkələrin Parlament Assambleyasının, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, Avronest Parlament Assambleyasının və digər nüfuzlu təşkilatların üzvüdür, bir neçə parlament təşkilatı, o cümlədən Avropa Parlamenti, NATO-nun Parlament Assambleyası, Baltik Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir. Milli Məclisin nümayəndə heyətləri beynəlxalq təşkilatların toplantılarında müntəzəm iştirak edir, dövlətimizin müxtəlif məsələlərə dair mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün bu vasitədən də səmərəli istifadə edirlər.

V çağırış müddətində Milli Məclis Sədrinin rəhbərliyi ilə parlament nümayəndə heyəti 38 dəfə xarici səfərlərdə olmuşdur. Bu səfərlər zamanı aparılan danışıqlar və görüşlər parlamentlərarası əlaqələrin inkişafına layiqli töhfə vermişdir. Heç də təsadüfi deyildir ki, Azərbaycan parlamentinin 100 illik yubileyi tədbirində 9 beynəlxalq təşkilatdan və 44 ölkədən 280 iştirakçı olub, onlardan 14 sədr, 20 sədr müavini, 16 ölkə isə digər səviyyədə təmsil olunub. Ümumiyyətlə, V çağırış müddətində Milli Məclis 24 beynəlxalq tədbirə ev sahibliyi etmişdir. Təkcə ötən il parlamentin xətti ilə 7 beynəlxalq tədbir keçirilmişdir.

**- Hörmətli Oqtay müəllim, Cənubi Qafqazın ən böyük siyasi partiyası, iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası növbədənkənar parlament seçkilərinə "Daha güclü Azərbaycan naminə" şüarı ilə gedir. Bu barədə Sizin fikirlərinizi bilmək istərdik.**

- Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycanın siyasi sistemində özünəməxsus və aparıcı rolu var. Yeni Azərbaycan Partiyası cari ilin fevralın 9-da keçiriləcək parlament seçkilərinə ruh yüksəkliyi və qələbə əzmi ilə baxır.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu partiya bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında daha güclü Azərbaycan naminə yeni məqsədlərə doğru inamla addımlayır. Müasir Azərbaycan artıq dünya birliyində özünü təsdiqləməklə yanaşı, bütöv bir bölgənin iqtisadi tərəqqisinə təkan verə biləcək bir gücdədir.

Dərin iqtisadi, sosial, hüquqi, struktur-institusional və kadr islahatları ölkəmizdə iqtisadi fəallığın artmasını, yeni sosial-iqtisadi və mənəvi mühitin formalaşmasını, Azərbaycanın regionun ən aparıcı ölkələrindən birinə çevrilməsini təmin edib.

Biz bütün bunlara partiyamızın lideri və dövlətimizin başçısı Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində nail olmuşuq. Məhz İlham Əliyevin prezidentliyi dövründə inkişafın Azərbaycan modeli dünyanın nüfuzlu maliyyə qurumları tərəfindən də təqdir olunmuşdur. Ölkədə hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu sürətlə davam etdirilir. Siyasi sistemin inkişaf etdirilməsi, hərtərəfli islahatların həyata keçirilməsi üçün vacib olan qanunlar qəbul olunmuş, mövcud qanunlar daha da təkmilləşdirilmişdir. Bütün bunlar parlament tərəfindən Prezidentin yürütdüyü siyasətə dəstəyin ifadəsidir. Ölkə başçısı cənab İlham Əliyevin vurğuladığı kimi, parlament xalqın mənafelərinin həqiqi təmsilçisi olmalı, millət vəkili isə onu seçmiş insanların qayğıları ilə yaşamalıdır. Hazırkı tarixi mərhələdə qarşımızda mühüm vəzifələr durur. Biz Azərbaycanın inkişafını yeni mərhələyə çatdırmaq, dövlətimizi daha qüdrətli etmək, Azərbaycan vətəndaşlarını daha yüksək rifaha qovuşdurmaq, sabitliyi və inkişafı qorumaq niyyətindəyik. Yeni Azərbaycan Partiyasının seçki proqramının məğzini də məhz bu amallar təşkil edir.

Yeni Azərbaycan Partiyasının proqramında təqdim olunanlar, sadəcə, vədlər deyil, onlar Azərbaycanın dinamik inkişafının gətirdiyi reallıqlara əsaslanan, dayanıqlı tərəqqini təmin etmək üçün yeni şərtlər formalaşdıran gerçəkliklərdir. Bu sənəddə nəzərdə tutulmuş məqsədləri həyata keçirmək üçün milli maraqlara söykənən fəaliyyətimizi davam etdirmək dövlətimiz üçün müstəsna əhəmiyyətə malikdir. Heç şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyasının namizədlərinə verilən səslər Azərbaycanın qüdrətinin və əhalinin rifahının daha da artmasına xidmət edəcəkdir!

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*




## Mahir Abbaszadə seçicilərlə növbəti görüşünü Oğuzda keçirib





121 saylı Laçın Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Mahir Abbaszadə seçicilərlə növbəti görüşünü Oğuz, Bərdə və Tərtər rayonlarında keçirib.

Görüşlərdə çıxış edən parlament seçkilərinə YAP-ın namizədi Mahir Abbaszadə bildirib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllini sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib: "Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülür, Bakıda və regionlarda yeni yaşayış kompleksləri inşa edilir. Bu kateqoriyadan olan insanların mənzil, təhsil və sağlamlıq problemlərinin həllinə Birinci vitse-prezident xanım Mehriban Əliyeva da xüsusi diqqət və qayğı göstərir, bu sahədə mühüm işlər görür".

Görüşdə çıxış edən təbliğat-təşviqat kampaniyasının iştirakçıları Mahir Abbaszadənin, ötən illər ərzində olan deputatlıq fəaliyyəti haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, deputat hər zaman seçicisinin yanında olub və onları parlamentdə layiqincə təmsil edib.

Deputatlığa namizəd növbəti dönəm üçün Milli Məclisə seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, ötən illərdə olduğu kimi, Laçın əhalisinin problemlərinin həllinə çalışacağını və parlamentin işində fəal iştirak edəcəyini bildirib.

Görüşdə çıxış edən seçicilər fevralın 9-da seçki məntəqələrinə gələcəklərini və yüksək fəallıq nümayiş etdirərək, hakim partiyanın namizədi Mahir Abbaszadəyə səs verəcəklərini bildiriblər.

***RƏFİQƏ KAMALQIZI***

## Aqil Məmmədov kəlbəcərlilərin real seçimidir







123 saylı Kəlbəcər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aqil Sadıq oğlu Məmmədov təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşlərini davam etdirir. Növbəti görüşü Oğuz və Qəbələ rayonlarında davam etdirilib. Oğuz rayonunun Calud kəndində və Qəbələ rayonunun Zarağan 1 qəsəbəsində məcburi köçkün seçicilərlə keçirilən görüşlərdə YAP Kəlbəcər rayon təşkilatının aparat rəhbəri Qənaət Əsgərov ölkəmizin növbəti vacib siyasi proses ərəfəsində olduğunu deyib. Sonra 123 saylı Kəlbəcər Seçki Dairəsindən YAP-ın deputatlığa namizədi Aqil Məmmədov haqqında məlumat verən Qənaət Əsgərov seçiciləri fevralın 9-da partiyamızın namizədinə səs verməyə çağırıb.

Görüşlərdə, həmçinin, rayon ziyalıları Həsən Məmmədov, Zahid Muxtar, Saday Musayev və başqaları çıxış edərək dövlətçiliyə sadiq kəlbəcərlilərin bu dəfə də YAP-ın namizədinə səs verəcəklərinə inam ifadə ediblər.

Görüşlərdə çıxış edən deputatlığa namizəd Aqil Məmmədov, öncə, YAP-ın Seçki Proqramı haqqında seçicilərə ətraflı məlumat verib. Çıxışında ölkəmizin hərtərəfli inkişafı, dövlətimizin beynəlxalq aləmdə artan nüfuzu, əhalinin sosial rifah halının durmadan yaxşılaşdırılması istiqamətində görülən işlərdən, eləcə də bu gün Yeni Azərbaycan Partiyasının dövlət və xalq naminə yürütdüyü siyasətdən də danışan deputatlığa namizəd kəlbəcərli seçicilərin fevralın 9-da, məhz YAP-ın namizədinə səs verəcəklərinə əmin olduğunu bildirib.

A.Məmmədov əlavə edib ki, seçiciləri tərəfindən ona etimad göstərilərsə, bu etimadı doğrultmaq üçün var gücü ilə çalışacaq: "Çalışacam ki, mənə etimad göstərən hər bir seçicimin yanında olum".

***RƏFİQƏ HÜSEYNOVA***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Ağdaşlılar YAP-ın deputatlığa namizədi Cavid Osmanova səs verəcəklər







Fevralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərində 90 saylı Ağdaş Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Cavid Osmanovun təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Şıxlı və Aşağı Zeynəddin kəndlərində seçicilərlə keçirilib.

Görüşləri giriş sözü ilə açan deputatlığa namizəd Cavid Osmanov onu yüksək qonaqpərvərlik və gülər üzlə qarşıladıqları və yekdil dəstək nümayiş etdirdikləri üçün görüş iştirakçılarına öz təşəkkürünü bildirib. Milli Məclisə keçiriləcək seçkilər və bu seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP-ın namizədi kimi keçirdiyi görüşlər haqqında ətraflı məlumat verən deputatlığa namizəd, eyni zamanda, 4 il ərzində Milli Məclisdəki fəaliyyəti, rayon seçiciləri ilə keçirdiyi görüşlər və gördüyü işlərin də qısa hesabatını seçicilərinin diqqətinə çatdırıb. Cavid Osmanov rayonda aparılan abadlıq-quruculuq işləri haqqında söz açaraq, bütün bunların Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olduğunu qeyd edib. Cavid Osmanov ağdaşlıların həmişə dövlətə və dövlətçiliyə sadiqlik nümayiş etdirdiklərini görüş iştirakçılarının diqqətinə çatdırıb. Vurğulayıb ki, keçirilən bütün görüşlərdə seçicilərin ona yekdilliklə dəstək olmaları da ağdaşlıların dövlətə, dövlətçiliyə və Yeni Azərbaycan Partiyasına olan sədaqətindən irəli gəlir. Çıxışının sonunda Cavid Osmanov göstərdikləri dəstəyə və etimada görə seçicilərə bir daha dərin minnətdarlığını bildirib.

Hər iki görüşdə təbliğat qrupunun üzvlərindən Tənzilə Şıxıyeva, İsmayıl Xuduyev və Sevgili İbrahimova çıxış edərək, seçiciləri Cavid Osmanova yekdil şəkildə dəstək olmağa və səsvermə günü düzgün seçim edərək, Ağdaş üçün layiq olan namizədə səs verməyə çağırıblar.

Şıxlı və Qarasuqumlaq kəndlərindən olan seçicilərin iştirak etdiyi ilk görüş Şıxlı kəndində baş tutub. Kənd ağsaqqalları deputatlığa namizəd Cavid Osmanovla görüşərək, ona öz xeyir-dualarını veriblər. Seçicilərin coşqu ilə iştirak etdiyi görüşdə çıxış edənlər - Səriyyə Cəfərova, Əlövsət İsgəndərov, Əhməd Həmidov və Sona Əhmədova bəyan ediblər ki, onların tək bir seçimi var, o da Cavid Osmanovdur. Bu seçimi təsdiqləmək üçün isə fevral ayının 9-nu səbirsizliklə gözləyirlər.

Aşağı Zeynəddin kəndində keçirilən görüşə bu kənddən olan seçicilərlə yanaşı, Yeniarx və Tatlar kəndlərindən olan seçicilər də gəliblər. Bu kəndlərdən olan seçicilərin görüşdə dəfələrlə Cavid Osmanovun ünvanına sürəkli alqışlar səsləndirmələri onların seçiminin Yeni Azərbaycan Partiyasının namizədi olmasını açıq-aydın göstərirdi.

Çıxışlar zamanı seçicilər Dilbər Rəsulova, Rasim Pirməmmədov və Ətraf Səmədov qeyd ediblər ki, bu gün Azərbaycanda görülən işlər hər bir vətəndaşın gözü önündədir və onlar bir ağdaşlı kimi, bütün bunları çox yüksək qiymətləndirirlər. Çıxışçılar Azərbaycanın firavan gələcəyi üçün çalışan Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevə hər zaman dəstək olacaqlarını, keçiriləcək Milli Məclisə seçkilərdə, məhz Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova səs verəcəklərini qeyd ediblər.

**Zümrüd BAYRAMOVA**



## Cəlilabadlıların seçimi Malik Həsənovdur





Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə 67 saylı Cəlilabad şəhər Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Malik Həsənov rayonda şəhid ailələri Gülsüm Niftiyeva, İslam Xudiyev, Aqil Alışov və Elnur Abdullayevlərin ailələrini ziyarət edib.

Şəhidlərimizin əziz xatirələrini ehtiramla yad edən YAP-ın deputatlığa namizədi Malik Həsənov şəhid ailələrinin üzvləri ilə söhbət edərək, onların arzu və istəklərini dinləyib. Malik Həsənov söhbət zamanı bildirib ki, ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və veteranlara daima qayğı göstərir, onları narahat edən problemlərin həllinə hər zaman böyük həssaslıqla yanaşır, diqqət mərkəzində saxlayır.

Malik Həsənov, həmçinin, seçki platforması haqqında məlumat verib və Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də “Daha güclü Azərbaycan naminə!” şüarı ilə inamlı qələbə qazanacağına dair əminliyini söyləyib. Bildirib ki, növbəti dəfə də seçiləcəyə təqdirdə, hər bir seçicinin probleminin həllinə çalışacaq.

Şəhid ailələri də seçkilərdə hamılıqla fəal iştirak edəcəklərini və YAP-ın namizədi Malik Həsənova səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*





## Masallı seçicilərinin seçimi Məşhur Məmmədovdur

***9** fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində 70 saylı Masallı şəhər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məmmədov Məşhur Şahbaz oğlunun "Daha güclü Azərbaycan naminə!" devizi altında rayonun Səmidxan, Xallıcallı və Qarğalıq kəndlərində seçicilərlə görüşləri keçirilib. Görüşlər zamanı əhalinin cari vəziyyəti və kəndlərin inkişaf imkanları müzakirə olunub.***

Böyük seçici izdihamı ilə keçirilən görüşdə YAP-ın parlament seçkilərinə namizədi Məşhur Məmmədov Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin mahiyyətindən bəhs edərək, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşlarının rifahı və mənafeyinin dayandığını bildirib: "Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, ölkəmizdə bütün sahələri, o cümlədən, respublikamızın bölgələrinin də sosial-iqtisadi inkişafı xüsusi diqqət mərkəzindədir. Bu proqramlar çərçivəsində Masallıda da böyük quruculuq işləri həyata keçirilir".

Məşhur Məmmədov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hərtərəfli islahatların həyata keçirildiyini diqqətə çatdıraraq bildirib ki, bu islahatlar ölkəmizin daha yüksək nailiyyətlər əldə etməsinə müsbət təsirini göstərəcək.

Deputatlığa namizəd seçiciləri parlament seçkilərində daha güclü Azərbaycan naminə YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər YAP Masallı rayon təşkilatının sədr müavini Səfalı Paşayev, Hacı Rəbbi, Zəfər Əhmədov, Mirzağa Süleymanov və başqaları fevralın 9-da Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bəyan ediblər və qeyd ediblər ki, artıq seçimimiz bəllidir - YAP-ın parlament seçkilərinə namizədi Məşhur Məmmədovdur.



**RƏFİQƏ HÜSEYNOVA**





## Deputatlığa namizəd Məlahət İbrahimqızı seçicilərlə növbəti görüşünü keçirib

***Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü Nəsimi rayonu, 3-cü Alatava ünvanında keçirib.***

Görüşdə deputatlığa namizəd Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi dərin məzmunlu islahatlar haqqında ətraflı məlumat verib: "Bu islahatlar ölkəmizin inkişafına böyük təkan verməklə yanaşı, insanların sosial rifahının daha da yüksəlməsinə xidmət edir. Cosial-iqtisadi, məhkəmə-hüquq sistemində aparılan islahatlar ciddi nəticələr verməkdədir, vətəndaşlar islahatların nəticələrini öz həyatlarında hiss edirlər". M.İbrahimqızı söyləyib ki, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində də sosial məsələlərin həlli xüsusi yer tutur.

Məlahət İbrahimqızı onu da bildirib ki, ölkəmizdə bütün seçkilər azad və demokratik keçirilib. Budəfəki parlament seçkilərinin azad və şəffaf keçirilməsi üçün dövlət tərəfindən lazımi tədbirlər görülüb, namizədlər üçün bərabər şərait yaradılıb. Deputatlığa namizəd, həmçinin, YAP-ın Seçki Proqramı haqqında seçicilərə ətraflı məlumat verib, daha güclü Azərbaycan naminə qarşıda duran vəzifələrdən danışıb.

Bakı şəhərində abadlıq və quruculuq işlərinin böyük vüsət aldığını deyən M.İbrahimqızı bu prosesin Nəsimi rayonunda da uğurla davam etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakıda abadlıq işlərinin görülməsi, abad həyətlərin yaradılması insanlar tərəfindən böyük rəğbətlə qarşılanır.

M.İbrahimqızı bu uğurların davamlı olması üçün, "Daha güclü Azərbaycan naminə" seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Prezident İlham Əliyevin inkişaf siyasətini dəstəklədiklərini, 9 fevral seçkilərində də YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

Görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib. Seçicilər bir sıra sosial və kommunal məsələlərin həlli ilə bağlı fikirlərini bildiriblər. Deputatlığa namizəd Məlahət İbrahimqızı qaldırılan məsələlərin təhlil olunaraq, həll edilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Deputatlığa namizəd Məlahət İbrahimqızı seçicilərlə növbəti görüşünü keçirib







Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə deputatlığa namizədi Məlahət İbrahimqızı parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü 1-ci mikrorayon, A.Məhərrəmov - 42 ünvanında keçirib.

Görüşdə deputatlığa namizəd Məlahət İbrahimqızı çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə, son 16 il ərzində, ölkədə görülən işlərdən və həyata keçirilən uğurlu siyasətdən söz açıb. Ölkə daxilində həyata keçirilən sosial, mədəni, aqrar və sənaye layihələrinin uğurla icra edildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, uğurlu islahatlar nəticəsində, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır. İslahatlar ölkə vətəndaşının sosial durumunu xeyli dərəcədə yüksəldib və rayonlarda müasir infrastrukturlar yaradılıb. Məlahət İbrahimqızı bu uğurların davamlı olması üçün, daha güclü Azərbaycan naminə seçiciləri 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Yüksək əhvali-ruhiyyədə keçən görüşdə seçicilər də, öz növbələrində, Məlahət İbrahimqızını tam əmin ediblər ki, əvvəlki seçkilərdə olduğu kimi, builki parlament seçkisində də müstəqil Azərbaycan dövlətinin inkişafının qarantı olan Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklər. Görüş zamanı deputatlığa namizəd seçicilərin problemləri ilə yaxından maraqlanıb. Növbəti dəfə deputat seçilərsə, onların problemlərinin həllinə səy göstərəcəyini bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***



## Zaqatala gəncləri “Daha Güclü Azərbaycan Naminə” Kamilə Əliyevaya səs verəcəklər





**111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Zaqatala gəncləri ilə keçirilib.** Görüşdə deputatlığa namizəd Kamilə Əliyeva çıxış edərək ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlərə nəzər salaraq, Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli təbəqə kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətinin mühüm rol oynadığını bildirib. O, qeyd edib ki, Zaqatala gəncləri də dövlət-gənclər siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyevin sərəncam, tapşırıq və tövsiyələrinin icrasında fəal mövqe tuturlar. O, Zaqatala rayonunda həyata keçirilən gənclər siyasətindən və gənclərin sosial problemlərinin həllindən danışarkən, vurğulayıb ki, bu gün Zaqatala gəncləri təkcə rayonun deyil, eləcə də, ölkəmizin ictimai-siyasi həyatında fəallıqları ilə seçilirlər: “Zaqatala gəncləri dövlət-gənclər siyasətinə sadiq olaraq, uğurlar əldə ediblər. Onlar sosial-iqtisadi inkişafda fəallıqlarını artıraraq, təhsildə, informasiya texnologiyalarına yiyələnməkdə, peşə öyrənməkdə, hərbi- vətənpərvərlik tərbiyəsində, intellektual inkişafda, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsində, ardıcıl olaraq, nailiyyətlər qazanırlar”.

Kamilə Əliyeva Prezident İlham Əliyevin istər daxili, istərsə də xarici siyasətində ölkəmizin uğurlar qazandığını və vətəndaşların rifahının daima Prezidentin diqqətində olduğunu gənclərin diqqətinə çatdırıb.

Görüşdə fəal gənclər çıxış edərək, dövlət qayğısının daim öz üzərlərində hiss edərək nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışdıqlarını bildiriblər. 9 fevralda seçki məntəqələrinə gələrək, Azərbaycanın inkişafında xidmətləri ilə seçilən, xalqın partiyası olan YAP-ın namizədinə etimad göstərəcəklərini və Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd Kamilə Əliyevaya yekdilliklə səs verəcəklərini bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

### Şabran





54 saylı Şabran-Siyəzən seçki dairəsindən fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə deputatlığa namizəd Sadiq Qurbanov növbəti görüşlərini Şabranın Gəndov, Ağalıq-Təzəkənd kənd sakinləri ilə keçirib.

Görüşlərdə çıxış edən Sadiq Qurbanov rayon seçiciləri ilə keçirdiyi görüşlər və gördüyü işlərin qısa hesabatını seçicilərinin diqqətinə çatdırdı. Son 10 il ərzində ölkədə görülən işlərdən, həyata keçirilən uğurlu siyasətdən söhbət açaraq bildirdi ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, ölkəmiz cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasət apararaq Azərbaycan xalqının maraqlarını hər zaman müdafiə etsin. Təbii ki, bütün bunlara görə Prezidentimiz cənab İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha da artacaqdır.

Sonda seçicilər öz xeyr dualarını verdilər və güclü ölkənin vətəndaşları olduqları ilə fəxr etdiklərini və bu qürur hissini onlara yaşadan cənab Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını çatdırdılar. 2020-ci il fevralın 9-da fəal olacağlarını, YAP-ın layiqli namizədə səs verəcəylərini bildiriblər.

### QUSAR



51 saylı Qusar rayon Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində Qusar rayonunun Piral, Cibir və Yasab kəndlərində seçicilərlə görüşü keçirilib.

Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu dinamik inkişafını qeyd edərək, ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin də uğurla icra edildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. D.İbramxəlilov partiyanın deputatlığa namizədi Azər Badamovun



fəaliyyəti barədə danışaraq, seçiciləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Azər Badamova səs verməyə çağırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, Milli Məclisin deputatı olduğu dövrdə özünün fəaliyyəti barədə seçicilərə ətraflı məlumat verib.

Görüşlərdə çıxış edən kənd sakinləri İkram Qasımov, Ramiz Orucov, Məmməd Rəcəbov, Təbrik Nurmətov, Ağakişi Muradxanov və Rəhimə Muradxanova Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizədə yekdilliklə səs verəcəklərini bildiriblər.

### SABUNÇU






27 saylı Sabunçu ikinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Əliabbas Salahzadənin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Sabunçu rayon təşkilatının qərargahında seçiciləri ilə növbəti görüşü keçirilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov, rayon təşkilatının aparat rəhbəri Rəşad Abbasəliyev çıxış edərək, hakim partiyanın seçkilərə hazırlığı və rayon təşkilatının bu məqsədlə gördüyü işlər barəsində məlumat veriblər. Bildiriblər ki, hazırda təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir, partiyanın namizədləri yerlərdə seçicilərlə görüşürlər və seçiciləri 9 fevralda keçiriləcək parlament seçkilərində YAP namizədi Əliabbas Salahzadəyə səs verməyə çağırıblar.

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə çıxış edərək öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Ə.Salahzadə seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib. O, seçkilərdə qalib gələcəyi təqdirdə, rayonun seçicilərinin etimadını doğrultmağa çalışacağını söyləyib. Bildirib ki, Azərbaycanın daha da güclü dövlətə çevrilməsi üçün bütün potensialını sərf edəcəyini deyib və seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıb.

### SƏBAİL

9 fevralda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində 29 saylı Səbail Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının deputatlığa





namizədi Aytən Hüseynova Badamdar qəsəbəsində şəhid Məmməd Məhbub oğlu Mirzəməmmədovun ailəsini evində ziyarət edib, şəhidin həyat yoldaşı və ailə üzvləri ilə görüşərək, onların arzu və istəklərini dinləyib. Bildirib ki, dövlətimiz Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsini daim uca tutur və onların ailə üzvləri həmişə diqqət mərkəzində olurlar.

A.Hüseynova, həmçinin, seçki platforması haqqında məlumat verdi və Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də inamlı qələbə qazanacağına əminliyini bildirib.

Görüşdə şəhidin həyat yoldaşı Dürdanə xanım Mirzəməmmədova və övladları şəhid Məmməd Məhbub oğlu Mirzəməmmədovun adının əbədiləşdirildiyini və şəhidin adının Ağsu rayonunda Aratkənd kənd tam orta məktəbinə verildiyini xüsusi məmnuniyyətlə qeyd edərək, onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildiriblər. Və qarşıdakı parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

### XAÇMAZ





55 saylı Xaçmaz Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Səlimov rayonun Yergüc kəndində gözdən əlil Əlirzayev Niyaməddin Kəmaləddin oğlunun evində olub, problemləri ilə maraqlanıb.

YAP-ın namizədi seçki ərəfəsində olduqlarını və seçicilərin öz seçimlərində fəal olacaqlarına, düzgün mövqe nümayiş etdirəcəklərinə inandığını da söyləyib: "Sizləri layiqli və onların problemlərində yardımçı ola biləcək namizədlərə səs verməyə çağırıram. Azərbaycanın bugünkü inkişafı, onun regionun qüdrətli dövlət olaraq, adının hallanması və dünyada aparıcı imicinin qorunub-saxlanması naminə xalqın layiqli övladları Milli Məclisin üzvləri seçilməlidir. Hər birinizi seçki günü ən real namizədlərə səs verməyə çağırıram".

**RƏFİQƏ HÜSEYNOVA**
**Nəzakət ƏLƏDDİNQIZI**

***Yanvarın 28-30-da Cenevrədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşü baş tutub. Görüş, son illər ərzində tərəflər arasında keçirilmiş ən intensiv müzakirələrin aparıldığı görüş olub. Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar. Bu sırada, ilk olaraq, 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə, iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, ikinci, münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də, münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələləri müzakirə olunub. Bu xüsusda nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar. Söhbət etdiyimiz müsahiblərimiz görüşün Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində müsbətə doğru növbəti addım olduğunu bildirdilər.***

# Cenevrə görüşü Dağlıq Qarabağ münaqişəsinin həllinə nə vəd edir?

## *"Həmsədrlər görüşün nəticəsi ilə bağlı bəyanatında danışıqların mahiyyəti ilə bağlı heç nə açıqlamadı"*



### Politoloq Elxan Şahinoğlu: "Münaqişə mərhələli həll planı ilə nizamlana bilər"

- Qarabağ danışıqlarında irəliləyiş yoxdur, amma ATƏT-in Minsk Qrupu, nədənsə, nazirləri görüşdürməyə qərar verib. Əgər Ermənistanın mövqeyində dəyişiklik yoxdursa, bu görüş nəyə xidmət edirdi, məndə suallar yaratdı. Yeganə ağlıma gələn o oldu ki, yəqin həmsədrlər qorxurlar ki, əgər danışıqlarda irəliləyiş yoxdursa, cəbhə bölgəsində vəziyyət hər an gərginləşə bilər. Ona görə də, gərginliyin olmaması üçün ara-sıra nazirləri görüşdürürlər ki, bir az yumşalma olsun. Səhv etmirəmsə, nazirlər arasında danışıqlar 7 saatdan çox davam edib. Bu qədər vaxt sürən danışıqlarda, əslində, detallı müzakirələr getməlidir. Əgər mövqelər 180 dərəcə biri-birindən fərqlənirsə, görüş tez bir zamanda yekunlaşmalı idi. Amma göründüyü kimi, görüş 7 saat davam edib. Bu müddətdə hansı detallar müzakirə olunub, onu söyləmək çətindir. Çünki hələ nazirlərin heç birinin açıqlaması yoxdur. Düşünmürəm ki, Minsk Qrupunun yeni bir planı var. Ötən 25 ildə münaqişənin həlli ilə bağlı mümkün bütün planlar ortaya qoyulub və yeni nəsə ixtira etmək mümkün deyil, Hamı da bilir ki, bu münaqişə mərhələli həll planı ilə nizamlana bilər. Dünyadakı heç bir münaqişə dərhal həll olunmur. Yəni ilk növbədə, Dağlıq Qarabağın ətrafındakı rayonlar boşaldılmalıdır, azərbaycanlılar geri qayıtmalıdır. Sonra digər məsələlər həll olunmalıdır. Hətta Paşinyan da bunu etiraf etdi. O son müsahibələrində çağırış etdi ki, keçmiş hakimiyyət dövründə gündəmdə olan 7 rayonun Azərbaycana qaytarılması ilə bağlı müzakirələrdə iştirak edək. Paşinyan bu açıqlaması ilə iki məqsəd güdürdü. Birincisi, rəqibi olan "Qarabağ klanı"nı zəiflətmək və cəmiyyətə göstərmək istəyirdi ki, guya bu klan Qarabağı Azərbaycana qaytarmaq istəyir. İkinci hiyləgər məqsədi odur ki, bununla cəmiyyətə mesaj verir ki, masa üzərindəki mərhələli həll planıdır və bundan qaça bilməyəcəyik. Düzdür, o, bununla razılaşmır, əksinə, deyir ki, "Qarabağ Ermənistandır" və yenə də Qarabağa təxribatçı səfərlər edir. Onun bu açıqlaması göstərir ki, bütün qüsurlarına rəğmən, masadakı mərhələli həll planıdır. Amma nazirlərin görüşünə gəldikdə, mərhələli həll planı ilə bağlı müzakirələrin aparıldığını düşünmürəm. Çünki biz mərhələli həll planı deyirik, Ermənistan isə "paket həll varinatı", status məsələsi, referendum deyir ki, bu da, Azərbaycanın maraqlarına cavab vermir. Ermənistanın baş naziri Nikol Paşinyan son müsahibəsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı maraqlı açıqlama verdi. Paşinyan dedi ki, ondan əvvəlki prezident və baş nazir olan Serj Sarkisyan Azərbaycana 7 rayonu (Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Laçın) qaytarmaqla bağlı danışıqlar aparıb. Ermənistanın baş naziri Nikol Paşinyan keçmiş prezident Serj Sarkisyanın 7 rayonun Azərbaycana geri qaytarmağı müzakirə etdiyini açıqlamasıyla iki məqsəd güdüb. Birinci məqsəd odur ki, Paşinyan guya sirrin üstünü açaraq, ermənilərə bəyan edir ki, keçmiş hakimiyyət "Qarabağı satmağa hazırlaşırdı". Ermənistanın baş naziri bu yolla erməni cəmiyyətinin gözündə əsas rəqibi olan "Qarabağ klanı"nın mövqelərini zəiflətməyə çalışır. Paşinyanın ikinci məqsədi isə, erməni cəmiyyətinə göstərməkdir ki, o, Azərbaycan torpaqlarını boşaltmaq variantını qəbul etməsə də, istər-istəməz, mərhələli həll planı müzakirə olunur. Paşinyan bu açıqlamanı verdikdən sonra yenə Dağlıq Qarabağa gəldi. Paşinyan Dağlıq Qarabağda hərbçilər üçün tikilən evlərin açılışında iştirak etdi. Paşinyan tez-tez Dağlıq Qarabağa gəlməklə, göstərmək istəyir ki, o, separatçıların razılığı olmadan Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarmayacaq. Paşinyanın bu siyasəti bölgədə müharibə risqini artırır. Məsələn, Dağlıq Qarabağın təmsilçiləri deyirlər ki, Azərbaycan müharibəyə hazırlaşır. Bu, həqiqətən, belədir. Əgər danışıqlarla müsbət nəticə yoxdursa və separatçılar Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarma istəmirlərsə, bölgədə müharibə risqi azalmayacaq. Bu arada, ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin İsveçrədə görüşdülər. Həmsədrlərin yeni planı yoxdur. Buna baxmayaraq, xarici işlər nazirlərinin budəfəki görüşü fərqli idi. Birincisi, həmsədrlərin vasitəçiliyi ilə görüş iki gün çəkdi. Birinci gün nazirlər arasında danışıqlar 7 saat oldu. İkinci gün danışıqlar 4 saata yaxın çəkdi. İkincisi, həmsədrlər görüşün nəticəsi ilə bağlı bəyanatda danışıqların mahiyyəti ilə bağlı heç nə açıqlamadılar. Bəyanatda, sadəcə, xalq diplomatiyasının gücləndirilməsinin vacibliyi bildirildi. Buna baxmayaraq, xarici işlər nazirlərinin görüşündən ciddi nəticə çıxdığını söyləmək mümkün deyil. Nazirlər hansısa detalları müzakirə ediblər. Ancaq bu detallar danışıqların nəticəsinə təsir etmir. Sülh sazişi imzalamadan xalq diplomatiyası faydalı olmayacaq. Çünki xalq diplomatiyası çərçivəsində Azərbaycanın və Ermənistanın ictimai fəalları, jurnalistləri və siyasi ekspertləri illərdir görüşürlər. Nəticə yoxdur. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov erməni həmkarı ilə keçən ilin dekabr ayında Bratislavada görüşmüşdü. Elmar Məmmədyarov görüşdə nəticə olmadığını bildirmişdi. Dekabr ayından bir ay keçib. Bu müddətdə Ermənistan hakimiyyətinin mövqeyində heç bir dəyişiklik baş verməyib. Ona görə də, nazirlərin İsveçrədəki görüşündə nəticə əldə oluna bilməzdi. Bundan başqa, nazirlər İsveçrədə görüşərkən, Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağa gəldi, işğal altındakı Kəlbəcərdə oldu. Bu, bir daha o deməkdir ki, Nikol Paşinyan Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarmağı düşünmür. Həmsədrlərin məqsədi bölgədə sakitliyi qorumaqdır. Həmsədrlər xarici işlər nazirlərini mütəmadi görüşdürməklə gərginliyin azalmasına çalışırlar. Ancaq danışıqlar nəticə vermirsə, bölgədə gərginlik və sualların sayı azalmayacaq. Bu arada, Fransa prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə zəng etdi. Bu zəng diqqəti çəkdi. Fransa ATƏT-in Minsk Qrupunu 3 həmsədr ölkəsində biridir. Emmanuel Makronun Bakıya zənginin məqsədi nə idi? Birincisi, Makron bu zənglə göstərmək istəyib ki, Fransa da Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə aparılan danışıqlara maraq göstərir. İkincisi, Makron keçən il Azərbaycana səfər etməli idi. Ancaq bu səfər reallaşmadı. Mümkündür ki, Makron bu il Azərbaycana səfər edəcək və telefon danışığında səfərin tarixini barədə Azərbaycan Prezidentinə məlumat verib.

### Politoloq Qabil Hüseynli: "ATƏT-in Minsk Qrupu doğrudan da Ermənistan tərəfinə təzyiqlər göstərməyə başlayıb"

- ATƏT və ATƏT-in Minsk Qrupu doğrudan da Ermənistan tərəfinə təzyiqlər göstərməyə başlayıb. Ermənistanın bu məsələdə ovqatını təlx edən amillərdən biri də bir həftə bundan əvvəl Avropa Parlamentinin post-sovet məkanındakı bütün münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll edilməsi ilə bağlı verdiyi bəyanat və onun yazılı sürətdə bütün dünyaya yayılmasıdır. Artıq Avropada Dağlıq Qarabağ problemi ilə bağlı onun Moldova, Ukrayna və Gürcüstandakı proseslərə də aid etmək olar. Ciddi bir siyasi iradə formalaşıb, bu ciddi siyasi iradə milli zəmində baş verən bütün konfliktlərə və müharibələrə eyni bucaq altında yanaşılmasıdır. Yəni daha doğrusu, Helsinki Yekun Aktının tələbləri ərazi bütövlüyü məsələsinin ön plana çıxarılması prizmasından yanaşır və bu da, Avropada sabitliyin, sülhün təmin edilməsi üçün prinsipial əhəmiyyətə malikdir. Ruhi xəstə olduğu isbata yetirilmiş Paşinyan bu məlumatların təsiri altında çox qəzəbli bir bəyanat səsləndirdi, o, qəzəbli bəyanatında guya Sarkisyanın ciddi kompromislərə getdiyini və bunun nəticəsində də ona Sarkisyandan çox ağır bir miras qaldığını iddia etdi. Halbuki Sarkisyanın özü də Dağlıq Qarabağ məsələsində yalnız işğal edilmiş kənar rayonların qaytarılması məsələsində razılığa gəlmişdir, başqa məsələlərdə kompromisə getməmişdi. İndiyə qədər Gürcüstanın, Moldovanın və Ukraynanın ərazi bütövlüyü tanınırdısa və Azərbaycanın ərazi bütövlüyü məsələsində müəyyən çəkingənlik var idisə, bu gün artıq o məsələ də aradan qalxıb və Avropa bütün post-sovet məkanına eyni nəzərlə baxır. Məsələnin də bu nöqteyi-nəzərdən həll edilməsini tələb edir. Fransa prezidentinin dövriyyəyə daxil olması və "ermənilər yaxın dostumuz olsa da, Dağlıq Qarabağ probleminin Avropadakı sabitlik proseslərinə maneələr yaratdığını" deməsi və onun həllinin artıq yetişdiyini söyləməsi, məncə, ermənilərin qanını qaraldan məqamlardan biridir. Belə görünür ki, məsələnin hüquqi həllində haqqı və ədaləti təmin edən kifayət qədər baza formalaşıb. İndi qalır bu məsələnin icra edilməsi məsələsinə və eyni zamanda, bu məsələnin icrası zamanı Ermənistanın davranışlarına. Bu davranışlarda, cüzi də olsa, dəyişiklik var. Cenevrədə olan görüşün iki gün davam etməsi və Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin yenidən görüşmələri, münaqişənin həllində müəyyən məsələlərdə razılıq əldə edilməsi bunu sübut edir. Danışıqların məzmunu barədə yayılan məlumatda da göstərilir ki, danışıqlar predmet üzrə aparılıb, yəni Dağlıq Qarabağ probleminin həlli ilə bağlı indiyə qədər aparılmış danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparılıb və danışıqlar prosesinin davam etdirilməsi barədə razılığa gəlinibdir. Əgər Paşinyan hər şeyi sıfırdan başlamaq istəyirdisə, onun bu iddiası alınmadı və 25 ildən çox müddət aparılan danışıqlar prosesində əldə edilmiş müəyyən irəliləyişlərin üstündən xətt çəkmək mümkün olmadı və danışıqlar yenə də öz dövrəsinə qayıdır. Doğrudur, Ermənistan tərəfinin münaqişənin həllində konstruktiv mövqe sərgiləyəcəyini söyləməkdə çətinlik çəkirəm, amma hər halda, dünya məsələnin həllinin yollarını görür. Ərazi bütövlüyü məsələsi, həll məsələsində əsas məsələdir. Bu məsələnin reallaşması uğurunda Azərbaycan tərəfi axıra qədər öz səylərini davam etdirəcək. Zənnimcə, hər halda, Paşinyan indiyə qədər sarsaqlamaları ilə, beynəlxalq ictimai rəyə təsir göstərə bilmədi. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın dünya dövlətləri tərəfindən tanınmadığını Makron da açıq sürətdə bəyan etdi. Bu məsələnin həllində irəliləyişlərin olacağı proqnozunu verdi. Belə qənaətə gəlmək olar ki, nəhayət, Ermənistanı müəyyən bir qəlbə oturtmaq lazım gələcək və hətta mümkün olacaq.

**GÜLYANƏ**

# Şahnazaryan bir, Naqdalyan başqa cür danışsa da...

*Ermənistanın XİN rəsmisi Paşinyanın danışıqlar prosesində dalana dirənmə faktını ört-basdır etməyə cəhd göstərir*

***Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri, hazırda politoloqluq edən David Şahnazaryan Cenevrədə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü ilə bağlı maraqdoğurucu iddialar irəli sürüb. Erməni mətbuatının yazdığına görə, Şahnazaryan Cenevrədə Qarabağ münaqişəsinin siyasi yolla nizamlanması ətrafında "məzmunlu danışqların" keçirildiyini bildirib.***



### David Şahnazaryan "Məzmunlu danıqların intesivləşdirilməsi barədə danışılır"

Erməni siyasətçisinin sözlərinə görə, danışıqlar prosesində əsas məsələlərdən biri Dağlıq Qarabağda azərbaycanlıların və ermənilərin birgə yaşadıqları zonanın yaradılmasıdır. "İlk növbədə, Şuşanın məsələsi müzakirə olunur, habelə, məzmunlu danıqların intesivləşdirilməsi barədə danışılır" deyə ötən gün sözügedən məsələ ilə bağlı açıqlama verən erməni politoloqu onu da bildirib ki, məhz bu kontekstdə Cenevrədə keçriilən danışıqlara paralel olaraq, ABŞ-ın Bakıdakı səfiri Erli Litsenberger öz təşəbbüsü ilə Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyevlə görüşüb.

### Anna Naqdalyan: "Onun analizi Azərbaycan tərəfi və onlara bağlı dairələr üçün maraqlı ola bilər"

Maraqlıdır ki, Ermənistan XİN-in mətbuat xidmətinin rəhbəri Anna Naqdalıyan bildirib ki, David Şahnazaryanın analizində bugünkü reallıqla bağlı olan heç nə yoxdur. "Onun analizi Azərbaycan tərəfi və onlara bağlı dairələr üçün maraqlı ola bilər, lakin analizin başlıca nöqsanı budur ki, indiki reallıqla əlaqəsi yoxdur", deyən Naqdalyan Ermənistanın danışıqlar prosesində dalana dirənməsi reallığını gizlətməyə çalışıb.

*Rövşən NURƏDDİNOĞLU*

# Leyla Yunus xəyanəti davam edir




*Erməniрərəst və saxta "hüquq müdafiəçisi" birdəfəlik Ermənistana gedir*

***Sirr deyil ki, Leyla Yunus Azərbaycanda yaşadığı dövrdə, qondarma qurum olan "Sülh və Demokratiya İnstitutu" adı altında dəfələrlə Ermənistana səfər edib və orada görüşlər keçirib. Belə ki, o, Azərbaycanın təhlükəsizliyi zərərinə, 2002-ci ildən etibarən təsisçisi və sədri olduğu, hüquqi qeydiyyatı olmayan qurumu vasitəsi ilə Şahnazaryan David Qurgenoviç, Baqdasaryan Laura Seyranovna və digərləri ilə birlikdə Ermənistanın "Region" Tədqiqatlar Mərkəzi və digər qeyri-hökumət təşkilatları arasında "xalq diplomatiyası" üzrə birgə layihələrin həyata keçirilməsində iştirak edib. Bu layihələrin adı altında beynəlxalq donor təşkilatlardan aldığı qrant vəsaitləri, eləcə də, Karen Ohancanyan tərəfindən Böyük Britaniyadakı bankdan 2002-ci ildə, Ermənistanda fəaliyyət göstərən "Jurnalist Araşdırmaları" qeyri-hökumət təşkilatı tərəfindən isə İrəvan şəhərindəki bankdan 2004-cü ilin iyulundan 2005-ci ilin mayınadək olan müddətdə rəhbərlik etdiyi qurumun şöbə müdiri olan, əri Arif Yunusun Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarındakı hesablarına köçürülmüş külli miqdarda pul vəsaitləri müqabilində, düşmən ölkədə fəaliyyət aparıb.***

### David Şahnazaryanın növbəti dəstəyi ilə...

Əslində, bu, kimsədə təəccüb də doğurmur. Çünki o, hələ əvvəlki dövrlədə, xüsusilə, AXC-Müsavat iqtidarı zamanlarında dövlətdə yüksək vəzifə tutarkən, xalqa və millətə xəyanət edib. Maraqlıdır ki, özünü "əzabkeş" kimi təqdim edən L.Yunus bu dəfə də öz murdar xislətindən əl çəkməyib. Yaxın zamanlarda Yunuslar İrəvandakı partnyorlarının-Ermənistan xüsusi xidmət orqanlarının keçmiş rəhbəri David Şahnazaryanın növbəti dəstəyi ilə "dəhşətli Azərbaycan reallıqlarından" bəhs edən əhvalatlarının Ermənistanın kitab piştaxtalarına satışına hazırlaşırlar. Bu məqsədlə A.Yunus, eləcə də, arvadı L.Yunus mart ayında İrəvana səfər etməyi planlaşdırır. Hətta onların bu ölkəyə birdəfəlik getmələri məlumatları da var. Görünür, onlar digər erməni aşiqi, separatçı Əlikram Hümbətov üçün də çox darıxıblar. Reallığa qalanda isə, onların Ermənistana səfərləri, artıq nə qədər ermənipərəst olduqlarının aşkar sübutudur. Görəsən, L.Yunus həbsdə olarkən, "Leyla Yunusa azadlıq" bağıranlar bu sübut qarşısında nə deyəcəklər? Yəqin ki, onlar susacaqlar, çünki deməyə bir sözləri də qalmayıb...

*Rövşən RƏSULOV*

# Ermənistan Moskvaya, Minskə və Nur-Sultana arsızcasına dil uzadır

*Və ya əsl səbəblərdən qaçaraq, erməni xislətinə sadiqlik nümunəsi*

***"Rusiya, Belarus və Qazaxıstan dəyişilməz şəkildə antierməni siyasəti yürüdürlər". Bu fikirlər Ermənistanın "armenianreport" saytında qeyd olunub. Belə ki, erməni saytı iddia edir ki, bu ölkələr inteqrasiya və hərbi-siyasi bloklarda müttəfiqləri olan Ermənistanın deyil, bu birliklərə daxil olmayan tərəflərin maraqlarını müdafiə edir.***

### Azərbaycanın və Türkiyənin silahlanması erməniləri niyə vahimələndirir?

"Söhbət, konkrert olaraq, Azərbaycandan və Türkiyədən gedir, hansı ki, Moskva, Minsk və Nur-Sultan bu məsələdə canfəşanlıq göstərirlər" deyə yazan erməni nəşri qeyd edir ki, maliyyə təminatına görə, onlar azərbaycanlılara və türklərə silah verirlər, onlarla Ermənistanın acığına əməkdaşlıqlara gedirlər: "Bununla yanaşı, bəyan edirlər ki, Azərbaycanın silahla təchiz edilməsi Qarabağda birbaşa hərbi əməliyyatların başlanmasının qarşısını alır".



### Əks halda, nəyə görə belə vəziyyətə sürükləndiyini araşdırıb, şərh edərdi...

Maraqlıdır ki, Ermənistanın adıçəkilən saytı, nədənsə, Azərbaycan torpaqlarını işğal etməsi siyasəti barədə bir kəlmə də olsun yazmır və bir daha sübut edir ki, erməni həyasızlığı bu gün də mövcuddur. Əks halda, iqtisadi, siyasi və diplomatik məğlubiyyətlərdən qurtula bilməyən Ermənistan dövləti sağlam düşüncə kontekstində nəyə görə belə vəziyyətə sürükləndiyini araşdırıb, şərh edərdi. Amma göründüyü kimi, buna da cürəti çatmır və onu bütün cəhətlərdən məhv edə bilmək gücündə olan Moskvaya, Minskə və Nur-Sultana həyasızcasına, erməniçilik xislətinə sadiqlik nümayiş etdirməklə dil də uzadır.

*Rövşən*

# Yol qəzası törədərək hadisə yerindən qaçan sürücü tutulub



Yanvarın 28-də saat 23 radələrində Qazax rayonunun Birinci Şıxlı kəndi ərazisində yolu keçən kənd sakini F.Abdulkərimov naməlum avtomobillə vurulub. Piyada xəstəxanaya yerləşdirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yol qəzasını törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən "VAZ-2103" markalı avtomobilin sürücüsü, Qazax rayon sakini F.Şıxıyev Baş İstintaq və Təhqiqat İdarəsi və Baş Dövlət Yol Polisi əməkdaşlarının birgə keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində saxlanılıb.

### ELAN

Salyan rayonu Yenikənd kənd sakini Hüseynov Xalıq Qardaş oğluna verilmiş 1223236 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

SƏS

Son səhifə

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

1 fevral

# Ronaldo yenə ən yaxşı seçildi



***"Yuventus"un futbolçusu Kriştiano Ronaldo A Seriyasında yanvar ayının ən yaxşı oyunçusu seçilib. Qol.az xəbər verir ki, portuqaliyalı hücumçu bu ay meydana çıxdığı 4 oyunda 7 qol vurub, bir məhsuldar ötürmə edib. Ronaldonun mövsümdə vurduğu qolların sayısı isə 17-dir. Qeyd edək ki, A Seriyasının bombardirlər yarışında Çiro İmmobile ("Latsio) başçılıq edir. O, bu mövsüm 23 qol vurub.***

# Koronavirus Avropanın bəzi dairələrini vahiməyə salıb




Çin virusunun dünyada yayılması Avropanın bəzi dairələrini vahiməyə salıb. AZƏRTAC Macarıstan KİV-lərinə istinadla bildirir ki, təkcə Macarıstanda tənzif sarğılara tələbat o dərəcəyə çatıb ki, istər paytaxtın, istərsə də əyalət şəhərlərinin bəzi apteklərində onlar artıq qurtarıb.

Amma Dünya Səhiyyə Təşkilatının bu yaxınlarda yaydığı xüsusi press-relizdə qeyd edilir ki, tənzif sarğılar insanı koronavirusdan qorumur. Sənəddə deyilir ki, sarğılar virusun infeksiya daşıyıcıları tərəfindən yayılması ehtimalını azaltmaq üçün nəzərdə tutulub. Koronavirusdan yalnız xüsusi respirator qoruya bilər. Yeri gəlmişkən, apteklərdə həmin respiratorların yetərincə ehtiyatı var.

# "Barselona" 20 yaşlı futbolçu transfer edib



"Barselona" yeni transfer edib. Klubun saytında yer alan məlumatda deyilir ki, "Braqa"nın hücumçusu Fransişku Trinkayla 2025-ci ilin yayına qədər müqavilə imzalanıb. 20 yaşlı futbolçu mövsümün sonuna qədər "Braqa"da çıxış edəcək, iyul ayında isə "Barselona"ya qoşulacaq. İspaniya mətbuatı "Barsa"nın bu transfer üçün 31 miyon avro ödədiyini yazıb. Qeyd edək ki, "Trinkay" bu mövsüm"Braqa"da 11 oyuna 2 qol vurub.

# Hülya Avşarın 105 milyona ada almaq istəyi "suya düşdü"...



Türkiyənin məşhur aktrisası Hülya Avşarın ada almaq xəyalı suya düşüb. Belə ki, yay aylarını Balıkesirdəki lüks villasında keçirən sənətçi 2007-ci ildən etibarən Çiçək Adasını satın almağa çalışır.

Bağ evinin yaxınlığında yerləşən ərazi eyni zamanda ərəb iş adamlarının diqqət mərkəzindədir. Böyük tələbatın olduğunu görən ada sahibləri mülkün qiymətini artırıb. Əvvəl 105 milyon lirəyə (29 milyon 862 min AZN) satılan adanın dəyəri 30 milyon qalxıb.

Dünya ulduzları kimi ada sahibi olmaq istəyən Avşarın bu istəyi qiymət artımından sonra reallaşmayıb. Qeyd edək ki, Çiçək Adası 400 kvadrat metr ərazini əhatə edir. 1929-cu ildə Yunanıstana köçən Hatırlı ailəsi həmin ərazidə yaşayır. Ada zeytun ağacları ilə zəngindir.

# Simsiz qulaqlıqlar xərçəng riskini artırır



***ABŞ-ın "Apple" korporasiyası 2018-ci ildə 29 milyon simsiz "AirPods" qulaqlıqları satıb. İndi məlum olur ki, bu texnika xərçəng riskini artırır. AZƏRTAC xəbər verir ki, bu barədə məlumat BMT və Dünya Səhiyyə Təşkilatına ünvanlanmış petisiyada yer alıb.***

250-dən çox alimin imzaladığı müraciətdə deyilir ki, radiotezlikli radiasiya əsasında işləyən çoxsaylı simsiz qurğular, o cümlədən "Bluetooth", "Wi-Fi", müxtəlif cür mobil qurğular xərçəng riski baxımından çox təhlükəlidir, çünki onlar insanın qulaq kanalına taxılır və ora yüksək səviyyədə radiasiya ötürür.

Doğrudur, bu barədə yekdil fikir yoxdur, lakin radiotezlikli radiasiyanın heyvanlara təsirini öyrənən tədqiqatlar təsdiq edib ki, bu qurğular xərçəng törədə bilər. Lakin kanserogen sayılan radiasiya səviyyəsi bəzi hallarda tənzimləyici orqanların yol verdiyi maksimum həddən xeyli aşağı olub.

Xatırladaq ki, simsiz qulaqlıqlar smartfona zəif dalğaların ötürülməsi üçün elektromaqnit enerjisindən istifadə edən simsiz texnologiya - "Bluetooth" sistemi vasitəsilə qoşulur. "Bluetooth" zəif radiodalğalar əsasında işləyir. Lakin radiodalğaların aşkar riski bundan ibarətdir ki, onların səviyyəsi yüksək olanda yanıqlar törədir. Alimlər zəif radiodalğaların insan orqanizminə uzun müddət necə təsir göstərdiyini aydınlaşdırmağa çalışırlar.

# Hansı şirə şiş hüceyrələrinin qatilidir? - Alimlər açıqladı

***Hər gün təzə meyvə, tərəvəz şirələri çəkib içsəm, xərçəng olmaram düşünürük. Amma alimlər heyrətləndirəcəyiniz başqa şirənin adını çəkiblər. Hansı ki, biz onun şirəsini çəkmirik, içmirik, çünki dadı yaxşı deyil. Medicina.az-da yer alan məlumatda deyilir ki, alimlər meyvə və tərəvəz şirələrinin şiş hüceyrələrinə təsiri barədə son 12 ildə aparılmış bir neçə elmi tədqiqatın nəticələrini təhlil edərək bu qərara gəliblər ki, şirələr içində ən yaxşı nəticəni çiy kartof şirəsi göstərib.***



Kartof şirəsinin tərkibi çox zəngindir.

- Bədəni, orqanizmi hüceyrə səviyyəsində toksinlərdən təmizləyir.
- Həzm sistemini qaydaya salır.
- Mədə və 12 barmaq bağırsaq selikli qişasını bərpa edir.
- Qanda şəkəri salır.
- Qaraciyər, böyrəklərin işini bərpa edir.
- Ürək-damar sistemində faydalıdır, xolesterini azaldır, damarları təmizləyir.

Mütəxəssislər təzə və mümkün qədər yerli, orqanik sütül kartofu qabığı ilə istifadə etməyi tövsiyə edir.

Sadəcə kartofu su ilə yaxşı yuyun.

Şirənin hazırlanma qaydası:

- Kartofda olan qaralmış, göyərmiş ən kiçik nöqtə belə dərin təmizlənir.
- Yaxşı olar, saf təmiz kartof alasız.
- Suda yuduqdan sonra, üzərinə qaynar su gəzdirilir
- Sonra qabıqlı halda sürtgəcdən keçirib, tənzifdən süzürsüz.
- Şirəçəkəndən də çəkmək olar.

Şirə hazırlandıqda sonrakı 15 dəqiqə ərzində içilməlidir, çünki əksər vitaminlər havanın təsirindən ölür. Soyuducuda saxlamaq olmaz.

Hər gün yeməkdən 1 saat öncə 50 ml olmaqla təzə şirəsi içilir. Gündə 1-2 dəfə içmək olar. Kartof şiş hüceyrələrinin aktivləşməsi və artmasının qarşısını alır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600